№ 44 (987) 2-8 noyabr 2017-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır



# Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir

***Oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak ediblər.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində çıxış etdi.**

O, demişdir: - Mən sizin hamınızı səmimiyyətlə salamlayıram və Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bugünkü təntənəli mərasimdə qardaş, dost ölkələrdən qonaqlar gəlmişlər. Mən xüsusilə bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın Baş nazirlərini, Tacikistanın, Türkmənistanın nazirlərini salamlayıram və bu mərasimdə iştirak etdiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm.

Əziz qonaqlar, sizin bu gün bu mərasimdə iştirakınız Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini bir daha əyani şəkildə göstərir. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq.

Biznesin inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun çox böyük əhəmiyyəti var. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə bağlı anlaşma Gürcüstanda imzalanmışdır, ondan sonra Türkiyədə təməlqoyma mərasimi keçirilmişdir və nəhayət, bu gün biz Azərbaycanda, burada, Ələtdə bu yolun açılışını qeyd edirik. Bu yolun tikintisi Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı dostluğun, qardaşlığın nəticəsidir. Üç ölkə bütün sahələrdə uğurla əməkdaşlıq edirlər, bir-birini dəstəkləyirlər, ölkələrimiz, xalqlarımız üçün önəmli olan, dünya üçün önəmli olan layihələri icra edirlər. Bakı-Tbilisi-Qars bu layihələrin arasında öz layiqli yerini tutmuş bir layihədir.

Ondan əvvəlki dövrdə biz böyük tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını bərabər qeyd etmişdik. Ceyhan şəhərində o təntənəli mərasim mənim xatirimdədir, 2006-cı ildə əziz qardaşım Prezident Ərdoğanla birlikdə o kəməri açmışdıq. Bakı-Tbilisi-Ceyhan neft kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən böyük bir infrastruktur layihəsidir və bu gün bu kəmərlə, eyni zamanda, Xəzərin şərq hissəsindən də neft nəql edilir. Yəni, bizim ölkələrimiz, eyni zamanda, başqa ölkələr üçün də tranzit imkanları təmin ediblər. Ondan bir il sonra - 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum kəməri yenə də Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı əməkdaşlıq hesabına inşa edilmişdir. Bu layihə də həm Azərbaycanın, həm Gürcüstanın, həm Türkiyənin enerji təhlükəsizliyini təmin edir və 10 ildir ki, uğurla fəaliyyət göstərir. Üç ölkə, eyni zamanda, öz elektrik xətlərini birləşdirmiş və bu gün bu sahədə də əməkdaşlıq uğurla inkişaf edir. Təbii ki, dünya miqyaslı, Avropanın ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi də məhz Azərbaycan, Gürcüstan, Türkiyənin və digər ölkələrin birgə fəaliyyəti nəticəsində yaradılır. Bu layihənin icrası uğurla gedir. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizinin 4 hissəsi var. "Şahdəniz-2" layihəsi 98 faiz icra edilib. Cənubi Qafqaz kəməri Azərbaycanı Gürcüstanla birləşdirən qaz xəttidir, orada icra səviyyəsi 99 faizdir. Cənub Qaz Dəhlizinin əsas hissəsini təşkil edən TANAP layihəsinin də icrası 84 faiz səviyyəsindədir. TAP layihəsinin icrası isə təqribən 60 faizə yaxındır. Yəni, Bakı-Tbilisi-Qars dəmir yolu da əvvəl icra edilmiş layihələrin əsasında yaradılıb. Təbii ki, əgər biz əvvəlki dövrlərdə enerji, neft-qaz sahəsində bu nəhəng, böyük miqyaslı layihələri icra etməsəydik, bu gün Bakı-Tbilisi-Qars haqqında ancaq danışa bilərdik.

Onu da qeyd etməliyəm ki, bir çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Ancaq üç ölkə göstərdi və sübut etdi ki, bu, mümkündür. Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır. Əminəm ki, regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olacaqlar, bir-birini dəstəkləyəcəklər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir.

Bu dəmir yolu layihəsinə Orta Asiya ölkələri, o cümlədən Qazaxıstan böyük maraq göstərir. Həmin ölkələrdən gəlmiş nümayəndə heyətlərinin, yüksək vəzifəli şəxslərin bu mərasimdə iştirakı bunu əyani şəkildə göstərir. Biz əminik ki, yüklərin daşınması istiqamətində əlavə imkanlar yaranacaq və bizim ölkələrimizin Orta Asiya ölkələri ilə ənənəvi dostluq əlaqələri də bu dəmir yolu vasitəsilə möhkəmləndiriləcək. Avropa üçün bu yolun böyük əhəmiyyəti var. Azərbaycan bir neçə Avropa ölkəsi ilə artıq müvafiq danışıqlar aparmışdır. Avropa ölkələri də bu yolun tikintisinə çox böyük maraq göstərirlər.

Onu da qeyd etməliyəm ki, Azərbaycan, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində önəmli addımlar atır. Azərbaycan ərazisində Şimal-Cənub dəmir yolu layihəsi ilə bağlı bütün işlər tamamlanıb, yəni, bütün infrastruktur hazırdır. Eyni zamanda, Azərbaycan digər ölkələrdə infrastrukturun yaradılması ilə bağlı öz texniki və maliyyə imkanlarını ortaya qoyur. Biz indi Şimal-Cənub və Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası istiqamətində işləyirik, çalışırıq və hesab edirəm ki, bu, mümkündür. Əminəm ki, gələcəkdə Şimal-Qərb və Cənub-Qərb nəqliyyat yolları istifadəyə veriləcəkdir. Bu iki nəhəng layihə bir çox böyük ölkələri birləşdirəcək.

Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəklər. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcək. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır və öz maliyyə resurslarını ortaya qoyan ölkədir.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycan nəqliyyat sektoruna çox böyük önəm verir. Azərbaycanda bu sahəyə çox böyük sərmayə qoyulur. 2004-cü ildən bu günə qədər Azərbaycanda 11 min kilometr avtomobil yolu tikilmişdir, 6 beynəlxalq hava limanı istifadəyə verilmişdir. Bu gün Azərbaycanın çox böyük yük təyyarəsi parkı var. Azərbaycanda 20-yə yaxın iri yük təyyarəsi fəaliyyət göstərir. Azərbaycanın Xəzər dənizində ən böyük dəniz donanması var – 270 gəmidən ibarət donanma Xəzərdə yükdaşımalarının təşkili üçün xüsusi rol oynayır. Azərbaycanda bir neçə il bundan əvvəl böyük gəmiqayırma zavodu tikilmişdir. Bu zavod bütün növ gəmiləri istehsal edir. Gələcəkdə Xəzərdə yükdaşımaların gözlənilən artımı ilə bağlı bu zavod daha böyük həcmlə işləyəcək. Əlbəttə ki, nəqliyyat infrastrukturumuzun önəmli hissəsi bax, bu gün burada toplaşdığımız Ələt Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bu limanın tikintisi uğurla gedir, artıq liman fəaliyyət göstərir. Ancaq limanın birinci fazasının istismara verilməsi gələn ilin ortalarında nəzərdə tutulur. Ondan sonra ildə 15 milyon ton yük və 100 min konteyner bu limandan keçəcək. İkinci mərhələsinin başa çatması nəticəsində isə Ələt limanının imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaq. Yəni, son illər ərzində Azərbaycanda nəqliyyat sektoruna qoyulan sərmayə artıq çox güclü infrastruktura gətirib çıxarıb. Bu infrastruktur həm ölkəmiz, həm bölgə və həm də dünya üçün böyük əhəmiyyət kəsb edir.

Bir daha qeyd etmək istəyirəm ki, Bakı-Tbilisi-Qars tarixi layihədir, qlobal layihədir. Bu layihə ölkələri bir-birinə daha yaxın edəcək. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olmuşdur. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk.

Əziz dostlar, bu gözəl tarixi hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Əminəm ki, Bakı-Tbilisi-Qars yolu həmişə açıq olacaq. Sağ olun.

* * * *

**Mərasimdə Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev və Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov çıxış etmişlər.**

* * * *

Çıxışlardan sonra Türkiyənin Baş naziri Binəli Yıldırımın müraciəti oxunmuşdur.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə çıxış etmişdir. O, demişdir:

- Bu gün yaşadığımız dövrlə yanaşı, gələcəyimiz üçün də çox mühüm addım atırıq. Bu mərasimlə Asiyanı, Avropanı və Afrikanı bir-biri ilə birləşdirmək məqsədilə başladılan yeni "İpək Yolu" təşəbbüsünün vəsilələrindən birini istifadəyə veririk. Bakı-Tbilisi-Qars dəmir yolunda ilk səfərin reallaşması ilə "Orta dəhliz" layihəsinin ən önəmli mərhələsi başa çatdırılmış olur. Beləliklə, Londondan Çinə birbaşa dəmir yolu xəttinin qurulduğunu da bəyan edirik.

Qətiyyətimizin və uzaqgörənliyimizin əsəri olan bu layihə hamımızın birgə uğurudur. Azərbaycanlı qardaşlarım "Zəhmətlə yeyilən acı soğan minnətlə yeyilən baldan şirindir" deyirlər. Məhz bu baxımdan bu layihə zəhmətlə, fədakarlıqla, alın təri ilə reallaşdırıldığı üçün həqiqətən çox önəmlidir. Ölkəm və xalqım adından layihənin bütün bölgəmiz və bütün xalqlarımız üçün xeyirli olmasını Allahdan arzu edirəm.

Dəyərli qardaşlarım, biz dünyanın qəlbi olan, son dərəcə strateji coğrafiyada yaşayırıq. Regionumuz nəqliyyatdan ticarətə, turizmdən enerjiyə qədər böyük potensiala malikdir. Türkiyə, xüsusilə son 15 ildə yatırdığımız sərmayələrlə bu potensialı həyata keçirməyə çalışır. Bu günədək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin davamı olaraq, bir çox xidməti xalqımızın istifadəsinə verdik. "Marmaray" sürətli qatar xətlərinin inşası, mövcud dəmir yolu xətlərinin yenilənməsi, İstanbulda inşa etdiyimiz və üzərindən dəmir yolu xəttinin də keçəcəyi üçüncü körpü bu layihələrdən bəziləridir. Yatırdığımız bu sərmayələrlə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin üstünlüyünü və cəlbediciliyini daha da artırdıq. Azərbaycanın Ələt limanı ilə də yalnız üç ölkəni deyil, bütün Orta Asiya respublikalarını Qərb nəqliyyat marşrutları ilə birləşdiririk. Eyni qaydada Türkmənbaşı limanı vasitəsilə Türkmənistanın, Aktau limanı vasitəsilə Qazaxıstanın Avropaya çıxışını təmin edirik. Bakı-Tbilisi-Qars dəmir yolu xətti 1 milyon sərnişin və 6,5 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaq. Bu dəmir yolu xəttinin daşıma imkanları 2034-cü ildə isə 3 milyon sərnişin, 17 milyon ton yükə çatacaq. Təbii ki, bu, yükdaşımalarda xərcləri ciddi şəkildə azaldacaq.

Layihənin əhəmiyyəti tarixi İpək Yolu üzərində vaxt və məsafə baxımından nəqliyyatçılarımız üçün ən sərfəli imkanları təqdim etməsindədir. Sürətli qatar xətlərimizin hamısının istifadəyə verilməsindən sonra Çindən gələn yük Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi sayəsində "Orta dəhliz" vasitəsilə 12-15 gündə Avropa İttifaqı ölkələrinə çatacaq. Hazırda Çindən Avropaya gedən yükün həcmi 240 milyon tondan çoxdur. Ölkələrimizdən keçən "Orta dəhliz"lə bu yükün 10 faizi daşınacağı halda, bu, 24 milyon ton əlavə yük daşınması deməkdir.

Hörmətli qonaqlar, əlbəttə, belə bir yolun regionumuza faydası yalnız iqtisadi cəhətdən olmayacaq. Layihə siyasi cəhətdən sülh, təhlükəsizlik və sabitlik, sosial baxımdan rifah gətirəcək, yük və sərnişin daşınması ilə yanaşı, məlumat mübadiləsi ilə də ölkələrimizin qlobal inkişafına töhfə verəcək.





Regionun qədim dövlətləri kimi, biz həmrəylik və əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyimiz müddətdə daha çox böyük layihələrə imza ata bilərik. Bu günədək həyata keçirdiyimiz Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP kimi layihələr bundan sonra da edəcəklərimizin təminatıdır. Bu düşüncələrlə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının və ilk səfərinin bir daha xeyirli olmasını Allahdan diləyirəm. Bu qürur günümüzdə iştirak edən bütün qonaqlarımıza təşəkkürlərimi bildirir, sizi ən səmimi duyğularımla salamlayıram.

* * * *

Çıxışlardan sonra Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə bağlı qısa film nümayiş olunmuşdur.

Sonra dövlət və hökumət başçıları Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çivlərini vurdular və yoldəyişən qurğunu işə salmışlar. Bununla da Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edən ilk yük qatarı yola salınmışdır.

Sonda dövlət və hökumət başçıları qatarla açılış mərasiminin keçirildiyi Ələt limanından Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Ələt dəmir yolu stansiyasına yola düşmüşlər.

* * * *

Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş 2007-ci il fevralın 7-də Tbilisidə imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.

Proqnozlara görə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacaq. Bu dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkün olacaq. Bu isə regionda turizmin inkişafına güclü təsir göstərəcək. Bütün bunlar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Belə ki, bu yol istifadəyə veriləndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqi iki dəfəyədək azalacaq.

Müstəqillik tariximizin möhtəşəm layihələrindən birinin reallaşmasına rəhbərlik etməklə Azərbaycan növbəti dəfə təsdiqlədi ki, regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Bunu Bakı-Tbilisi-Qars dəmir yolunun geosiyasi və geoiqtisadi səmərəsinə nəzər saldıqda da görürük. Belə ki, bu dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfədir və onun imkanları sayəsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm tranzit qovşağına çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin perspektivlərindən danışarkən qeyd etməliyik ki, Asiyada yüklərin əsas yaranış ölkəsi olan Çin artıq bu xəttə böyük maraq göstərir. Bu layihə Qazaxıstan üçün də səmərəlidir. Çünki bu yol Türkiyənin Mersin limanı vasitəsilə Aralıq dənizi regionuna çıxışı təmin edir. Odur ki, bu dəmir yolu xətti Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantını tamamlayır, bununla da Avropa ilə Asiya arasında daşımalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ, bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaq.

Bununla da Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası xüsusi strateji əhəmiyyət daşıyır. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amildir. Bu, həm də layihənin icrasında nadir əməkdaşlıq formatı göstərən üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqələrin strateji təzahürünü bütün dünyaya nümayiş etdirir. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.

* * * *

Oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasiminin iştirakçıları üçün ziyafət verilib. Ziyafətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər iştirak ediblər.

# Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir

Oktyabrın 31-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilmiş, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi və ikitərəfli münasibətlərimizin daha da dərinləşdirilməsi baxımından önəmi vurğulanmışdır. Qlobal layihə olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının əhəmiyyəti qeyd edilmişdir.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * * * *

Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edərək demişdir:

- Cənab Prezident, biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu gün biz təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik. Bir daha görürük ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Əlaqələrimizin inkişafı ilə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bugünkü toplantısı da əminəm ki, çox uğurlu nəticə verəcək. Gündəlikdə bir çox məsələlər var - siyasi əlaqələr, beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz, iqtisadi sahədə əməkdaşlıq, hərbi, hərbi-texniki əməkdaşlıq, təbii ki, enerji, nəqliyyat məsələləri. Yəni, gündəlik kifayət qədər genişdir və bütün istiqamətlər üzrə çox yaxşı nəticələr var. Bizim qəbul etdiyimiz qərarlar icra edilir və hökumətlərarası birgə komissiya da çox uğurla fəaliyyət göstərir.

Əminəm ki, bu gün geniş tərkibdə müzakirə ediləcək məsələlər də yaxşı nəticələrə gətirib çıxaracaq. Bir daha xoş gəlmisiniz.

* * * * *

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək demişdir:

- Dünən və bu gün keçirdiyimiz görüşlərlə birlikdə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın, dostluğun necə yüksək səviyyəyə çatdırıldığını xüsusilə sevinc içərisində müşahidə edirik. Xüsusilə indi Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsini, atdığımız addımın nəticəsini görmək bizi çox qürurlandırır. Dünən 15 dəqiqəlik dəmir yolu səyahətimizi vətəndaşlarımız, xalqlarımız gördülər. İnşallah, onların tezliklə təkcə Qarsdan Bakıya deyil, Pekinə, Londona getdikləri günləri də hamımız birlikdə görəcəyik və dualarını eşidəcəyik. Bu münasibətlə dəyərli qardaşım Sizə, həmçinin memarından mühəndisinə, podratçısına qədər bütün firmalara, əməyi olan bütün nazir yoldaşlarımıza çox təşəkkür edirəm.

Bu münasibətlə bu gün keçirdiyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının da xeyirli olmasını diləyirəm.

* * * * *

Oktyabrın 31-də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının Protokolu"nu imzalamışlar.

Oktyabrın 31-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

# Azərbaycan "Doing Business 2018" hesabatında 57-ci yerə yüksəlib

Dünyada biznes mühitinin qiymətləndirilməsi sahəsində ənənəvi olaraq dərc olunan hesabatlarda Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar daim diqqət mərkəzində saxlanılır. Belə hesabatlardan biri də Dünya Bankı tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business" hesabatıdır.

Azərbaycan Respublikası Prezidentinin iqtisadi islahatlar paketinin reallaşdırılmasının nəticəsi olaraq, ölkəmiz 190 ölkənin biznes mühitini qiymətləndirən növbəti "Doing Business 2018" hesabatında 8 pillə irəliləyərək 57-ci mövqeyə yüksəlmiş, ötən il ərzində davam etdirilən uğurlu islahatların nəticəsi olaraq, 6 göstərici üzrə mövqeyini yaxşılaşdırmışdır.

Belə ki, oktyabrın 31-də açıqlanmış "Doing Business 2018" hesabatında Azərbaycan "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 22 pillə irəliləyərək 10-cu pilləyə, "Əmlakın qeydiyyatı" göstəricisi üzrə 1 pillə irəliləyərək 21-ci pilləyə, "Vergilərin ödənişi" göstəricisi üzrə 5 pillə irəliləyərək 35-ci pilləyə, "Müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə 6 pillə irəliləyərək 38-ci pilləyə, "Müəssisənin bağlanması" göstəricisi üzrə 39 pillə irəliləyərək 47-ci pilləyə, "Elektrik təchizatı şəbəkələrinə qoşulma" göstəricisi üzrə 3 pillə irəliləyərək 102-ci pilləyə yüksəlmişdir.

Hesabatda bir sıra göstəricilər üzrə biznes mühitinin yaxşılaşdırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ölkəmizdə aparılan islahatlar xüsusi qeyd edilmişdir. Belə ki, Azərbaycan "Doing Business 2018" hesabatında Avropa və Mərkəzi Asiyada 4 və daha çox islahat aparan 3 ölkədən biri kimi qiymətləndirilmişdir.

Belə ki, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 25 aprel 2017-ci il tarixində Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş dəyişikliklər, "Kreditin əldə edilməsi" göstəricisi üzrə "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 2016-cı il tarixli Qanununun qəbul edilməsi, "Müqavilələrin bağlanması" göstəricisi üzrə məhkəmə ödənişlərinin "Hökumət Ödəniş Portalı" vasitəsilə elektron qaydada həyata keçirilməsinin tətbiqi, "Müflisləşmənin həlli" göstəricisi üzrə "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş 25 aprel 2017-ci il tarixli dəyişikliklər "Doing Business 2018" hesabatında Azərbaycanın həyata keçirdiyi islahatlar kimi xüsusi qeyd olunmuşdur.

Hesabatda Azərbaycan "Kiçik investorların maraqlarının qorunması" (10), "Biznesə başlama" (18), "Əmlakın qeydiyyatı" (21), "Vergilərin ödənilməsi" (35), "Müqavilələrin icrasının təmin edilməsi" (38), "Müəssisənin bağlanması" (47) göstəriciləri üzrə reytinqdə ilk 50 ölkənin sırasına daxil edilmişdir.

Nüfuzlu beynəlxalq hesabatlarda ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşması Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən uğurlu islahatların məntiqi nəticəsidir.

# Ziyad Səmədzadə: Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini daha da sürətləndirəcək



Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın tarixində ən parlaq hadisələrdən biridir. Bu layihənin reallaşması müstəqil Azərbaycanın əldə etdiyi böyük uğurlardandır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib.

Ziyad Səmədzadə deyib ki, hər bir ölkənin özünün iqtisadi təhlükəsizliyini təmin etməsi üçün alternativ marşrutları olmalıdır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini daha da sürətləndirəcək, ölkəmizin nəqliyyat və iqtisadi əlaqələrinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək, Azərbaycanın regionda strateji tərəfdaş kimi rolunun daha da artmasına xidmət edəcək. Bütövlükdə, bu dəmir yolu xətti Azərbaycanın dünyada rəqabətədavamlı ölkə kimi mövqeyini möhkəmləndirəcək.

Komitə sədri vurğulayıb ki, Qərbdən Şərqə və əks istiqamətdə yüklərin daşınması mərkəzində Azərbaycan dayanır. Bəzi mənfur qüvvələr, xaricdəki erməni lobbisi istəmirdi ki, bu yol çəkilsin, onlar bu istiqamətdə maneələr yaratmağa çalışırdılar. Ancaq Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasəti, əzmkarlığı, fədakarlığı bu yolun çəkilməsində mühüm rol oynadı. Qədim İpək Yolunun bərpasında mühüm həlqə olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılması Azərbaycan üçün daimi kapitaldır, daimi gəlir mənbəyidir, siyasi mövqedir, ictimai, iqtisadi, siyasi sabitliyin ən vacib amillərindən biridir.

# Strateji Yol Xəritəsi dövlətin qlobal çağırışlara cavabı kimi



**2017-ci ilin 21-23 sentyabr tarixlərində Bakı şəhərində Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.**



*Konfrans haqqında oxuculara məlumat qəzetin 39 və 41-ci saylarında geniş verilmişdir.*

***Tədbirdən Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, Beynəlxalq Menecment Akademiyasının müxbir üzvi, i.e.n. Elşad Ziyad oğlu Səmədzadənin çıxışını təqdim edirik.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra - 1991-2015-ci illərdə ölkə iqtisadiyyatı sıçrayışla inkişaf edib. Bunu Dünya Bankının məlumatları da təsdiqləyir. Dünya iqtisadiyyatı 25 il ərzində 4 dəfə artdığı halda, Azərbaycan iqtisadiyyatı bu dövrdə 21,7 dəfə böyümüşdür. Ölkəmizdə tarixin bu kəsiyində təmin olunan 3 əsas amil var:

1. maliyyə sabitliyi;
2. institusional quruculuq;
3. böyük infrastruktur layihələri.

Etiraf etməliyik ki, çağdaş dövrdə Azərbaycan iqtisadiyyatının atdığı zər YEK qoşadır.




YEK deyəndə bir rəqəmini nəzərdə tutmuruq. YEK abreviatura olaraq Yanacaq Energetika Kompleksi ifadəsini bildirir. Yəni, iqtisadiyyatımızın əsasını neft-qaz sənayesi təşkil edir. Buna görə də dünya bazarında brend markalı neft qiymətinin 2008-ci ildə 146,3$-dan 2016-cı ildə 26,6$ səviyyəsinə düşməsi karbohidrogen ixracatçısı olan ölkələr, eləcə də Azərbaycan üçün qlobal çağırışa çevrilib. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi hazırlanıb.

Ümumiyyətlə, xəritələr eramızdan əvvəlki dövrün məhsuludur. Məşhur xəritələrdən biri Strabonun xəritəsidir.




Xəritələrin növlərindən biri isə yol xəritələridir. Onlar dinamikdir. Əzəldən yol xəritələri 2 cür olub: hərblə və turizimlə bağlı. Amma hərbdə rəqibin hərəkətləri dəyişir, təbiətdə isə geoloji proseslər baş verir, bunlardan asılı olaraq yol xəritələrində də dəyişikliklər olur. Elmi ədəbiyyata görə yol xəritəsi coğrafi, inzibati və sair dayanıqlı nəzarət nöqtələrini birləşdirən müxtəlif tipli yolların atlasıdır. Yol xəritəsi planı müəyyən məqsədə doğru hərəkəti əks etdirən tədbirlər planıdır. Xüsusi anlayış və ardıcıl tədbirlər planı kimi yol xəritəsi ilk dəfə siyasi həyatda, 2003-cü ildə BMT tərəfindən Fələstin-İsrail münaqişəsinin həlli üçün istifadə olunub. Müəyyən pozitiv nəticələr də əldə edilib. Sonradan bütün bu fikirlər sistemləşərək, iqtisadiyyata gəlib və nəticədə yol xəritələri hazırlanıb. Ümumilikdə, dünya iqtisadiyyatının tarixində adı xəritə olmasa da, mahiyyət taleyüklüyünə görə xəritə kimi strateji sənədlər olub. Onların ən mötəbərlərindən biri ABŞ dövlət katibinin adı ilə bağlı olan və 1947-ci ildə icrasına başlanılan Marşall planıdır. Bu sənədə əsasən, İkinci Dünya müharibəsindən sonra ABŞ-ın Avropaya 20 milyard dollar yardımı olub. Maliyyə resursları ilə yanaşı, idxal olunan texnologiyalar da Avropanın inkişafına töhfəsini verib.

Amma demək olmaz ki, neftin qiyməti düşdü və ondan sonra Azərbaycan dövləti özünün gələcəyi haqqında strateji baxışları formalaşdırmağa başladı, heç də yox. Yəni, 2012-ci ildə - dünya bazarında neft qiymətlərinin ölkəmiz üçün əlverişli olduğu dövrdə belə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası hazırlanmışdır. Bu sənəddə ictimai həyatın müxtəlif sahələri təhlil olunub və irəliyə istiqamətlər müəyyənləşib. Sevindirici haldır ki, Strateji Yol Xəritəsində də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından törəyən müddəalar var və bir növ bu sənədlər arasında varislik təmin olunub. Strateji Yol Xəritəsi xarici və milli ekspertlər tərəfindən birgə hazırlanmış sənəddir. Bizim fikrimizcə, Strateji Yol Xəritəsinin daşıdığı məna yükü əsasən üç hissədən ibarətdir: 1-ci onun psixoloji effektidir. Yəni, dünya bazarında neft qiymətlərinin azaldığı bir dövrdə ölkəmizdən kapital ixracının qarşısını almaq, işgüzar fəallığı pozmamaq üçün psixoloji effektə ehtiyac var idi. Beləliklə, bu sənəd yerli və xarici iqtisadi subyektlərin rahatlaşmasına kömək etdı.

2-ci odur ki, hamı məqsədləri gördü. Dövlət qurumları, sahibkarlıq və ictimai strukturlar hansı sahələrin öncül seçildiyini, hansı meqa meyillərin formalaşdığını bildilər və işlərini həmin istiqamətlərdə qurmağa başladılar.

3-cü odur ki, bütün resurslar xəritə məqsədləri üçün səfərbər olunur.

Strateji Yol Xəritəsinin Azərbaycanın digər dövlət sənədlərindən fərqi ondan ibarətdir ki, burada dünya hara gedir, dünyanın iqtisadiyyatının ağırlıq mərkəzi hara dəyişir kimi məsələlər təhlil olunur. Başqa ölkələrin təcrübələri öyrənilir. Digər tərəfdən, qlobal istehlak mədəniyyətindəki dəyişikliklər də geniş tədqiq olunur. Lakin, eyni zamanda, milli maraqlar məsələsi önə çəkilir.

Strateji Yol Xəritəsi ümumi aspektlə yanaşı, 11 istiqamətdə aparılır. Biz onları şərti olaraq bu cür bölmüşük.

**Sırf iqtisadi sahələrə aid olunan:**
- neft və qaz sənayəsi;
- ağır sənayə və maşınqayırma;
- telekommunikasiya və informasiya texnologiyaları;
- kənd təsərrüfatı məhsullarının istehsalı;
- kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı;
- ixtisaslaşmış turizm sənayəsi.

**Zənnimizcə, kommunikativ sahələrə:**
- maliyyə xidmətləri;
- logistika və ticarət;
- kommunal xidmətlər (həmçinin, enerji məsələri) aiddir.

**Təhsillə bağlı:**
- peşə təhsili.

**Sosial sahə:**
- uyğun qiymətə mənzil təminatı.

Strateji Yol Xəritəsində Azərbaycan iqisadiyyatının cari vəziyyəti tədqiq olunur, GZİT təhlili aparılır. GZİT abreviaturası bunu bildirir: güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr.

Bəzən bu xəritələrdən birindəki zəif tərəf digər xəritədə güclü tərəf kimi tarazlaşdırılıb. Misal üçün, logistika və ticarət xəritəsində külək elementi ümumi potensialı zəiflədən tərəfdir. Bəllidir ki, Xəzər dənizi ərazisində külək çoxdur, bu da gəmiçilik üçün çətinlik yaradır. Amma bu zəif tərəf alternativ enerji ilə bağlı xəritədə güclü tərəf kimi çıxış edir və əlavə enerji imkanı kimi ümumi potensialı tarazlaşdırır.

Strateji Yol Xəritəsində cəmiyyətin 3 institutunun vəhdəti təmin olunub: dövlət, sahibkarlıq və vətəndaşlıq cəmiyyətinin triadası. İctimai nəzarətə xüsusi diqqət ayrılıb.

Amma, eyni zamanda, bütün göstərilənlərlə yanaşı, bizim düşünməli olduğumuz məqamlar da var. Mən görkəmli rus iqtisadçısı i.e.d., professor Georgi Kleynerdən bir sitat gətirmək istəyirəm: "Kosmos haqqında düşünərkən biz traktor istehsalını yaddan çıxarmamalıyıq".

Yəni, nə qədər yüksək texnologiyalar haqqında fikirləşiriksə də, ənənəvi sahələri diqqətdən kənarda qoymamalıyıq və onların arasında məntiqi nisbəti təmin etməliyik.




Eyni zamanda, Strateji Yol Xəritəsində 27 milyard manatın iqtisadiyyata qoyulması nəzərdə tutulur. Bir təklif kimi irəli sürə bilərik ki, bunun təmin olunması üçün sahibkarların kommunikasiyalara qoşulmasının asanlaşması zərurəti var. Eyni zamanda, hər bir iqtisadiyyat üçün belə bir sual qoyulmalıdır. İqtisadiyyatın strukturu necə olsun? Sahələr arasındakı nisbət necə müəyyən edilsin? Məsələn, iqtisadiyyatı gəmiyə bənzətsək, onun hissələrə bölünməsi aysberqlə toqquşması zamanı gəminin dayanıqlığını qoruyaraq üzməsinə kömək edir. Biz müəyyən etməliyik ki, iqtisadiyyatımızın nə qədər hissəsi yanacaq kompleksinə, turizmə, istehsala, informasiya texnologiyalarına, kənd təsərüfatına, nəqliyyata və s. sahələrə bölünməlidir.



Bu dövrdə valyuta ehtiyatları ilə 1 milyarddan çox artıb. Biz düşünürük ki, eyni zamanda, Strateji Yol Xəritəsinin baxdığı bir son nöqtə var, o da dayanıqlı, davamlı inkişafdır. BMT tərəfindən irəli sürülən bu missiya cəmiyyətin inkişafı üçün 3 amilin vəhdətini arzulayır. Yəni, iqtisadi inkişafı, sosial inkişafı və ətraf mühitin qorunmasını. Bu 3 amil təmin olunduqda inkişaf davamlı ola bilər. Vurğulamaq istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti Strateji Yol Xəritəsi ilə bağlı 2 sənəd imzalayıb: 16 mart 2016-cı il tarixli sərəncam və 6 dekabr 2016-cı il tarixli fərman. Bu 2 sənəd arasındakı vaxtda - 06 oktyabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başqa bir fərman da imzalamışdır ki, bu da Azərbaycanın Dayanıqlı İnkişafı üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması ilə bağlıdır. Bir sözlə, Strateji Yol Xəritəsinin sonluğunda biz dayanıqlı, davamlı inkişaf arzulayırıq.

Biz Azərbaycan iqtisadiyyatında maliyyə kanalları sxemini (sxem 1) hazırlamışıq.




Deyək ki, 27 milyard manat dövlət şirkətlərindən, Dövlət Neft Fondundan, dövlət büdcəsindən gələcək. Dövlət büdcəsi ənənəvi gəlir mənbələri ilə yanaşı, əlavə vəsaiti daxili borclanma, xarici borclanma, özəlləşmədən götürəcək. Xərc istiqamətində isə vəsait dövlət büdcəsindən, "Azərbaycan İpoteka Fondu" ASC-dən, Aqroliznq ASC-dən və Sahibkarlara Kömək Milli Fondundan milli sahibkarlara ötürüləcək. Sahibkarlıq subyektlərinə korporativ fond bazarı, banklar əlavə vəsaitlə kömək edəcək. Bu vəsaitin üzərinə xarici şirkətlərin vəsaiti də gələcək. Bu cür yanaşsaq, sərmayə qoyuluşunun elementlərinə düşən payı planlaşdırmaq faydalı olar.

Digər tərəfdən, biz milli sahibkarlar üçün institusional - intellektual dəstək sxemini hazırlamışıq (sxem 2) və arzulayırıq ki, inkişafımızın modernləşməsi, texnoloji olması üçün mütləq xarici təcrübə öylənilməlidir.

Mərkəzi element kimi biz İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsini nəzərdə tuturuq və arzulayırıq ki, Xarici İşlər Nazirliyi ilə sıx əlaqələr təmin olunsun. Bakıda olan xarici səfirliklər, Azərbaycanın xaricdəki səfirlikləri, iqtisadi attaşelər vasitəsilə sərgilər və sairdən toplanılan bütün məlumatlar İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinə ötürülsün, yaxud orada İqtisadiyyat Nazirliyinin Lisenziyalaşdırma və sahibkarlara xidmətlərin göstərilməsi şöbəsində yerli xüsusiyyətlərə uyğun biznes planlar hazırlansın və İqtisadiyyat Nazirliyinin Abşeron, Gəncə-Qazax və s. kimi 8 regional bölmələsinə təqdim olunsun. Onlar vasitəsi ilə sahibkarlara izah olunsun və çalışılsın ki, bütün iqtisadi rayonlarda xarici təcrübəni nəzərə alaraq istehsallar qurulsun. Kadr potensialına ehtiyac olduqda Əmək Nazirliyi treninq mərkəzləri və yaxud da Təhsil Nazirliyi vasitəsi ilə bakalavr və magistratura hazırlığına müraciət olunsun.




Sxem 2

Ən zəruri məsələlərdən biri Strateji Yol Xəritəsində idarəetmə strukturları arasında koordinasiyanın təmin olunmasıdır. Buna ehtiyac var və düşünürük ki, bu koordinasiya təmin olunduqdan sonra islahatların nəticəsi daha faydalı olacaq.

Biz hesab edirik ki, ölkəmizdə ali məqsədə çatmağın meqa amilləri var, biz onu 4 hissəyə ayırmışıq:
- beynəlxalq enerji layihələri;
- beynəlxalq nəqliyyat layihələri;
- Azərbaycanın gözəl təbiəti;
-xalqımızın elmli, yaradıcı insanları.

***Qeyd etdiklərimizi ümumiləşdirərək deyə bilərik ki, inamla hədəfə doğru gedən dövlət iqtisadi siyasətinin olması göstərir ki, Azərbaycanda Strateji Yol Xəritəsinin və davamlı inkişafın təmini üçün bütün zəruri şərtlər mövcuddur!***

# UNEC yerli ixracatçılar üçün xarici bazarların digital marketinqini aparacaq

UNEC-də Digital Marketinq Mərkəzi yaradılıb.

Digital Marketinq Mərkəzinin (DMM) əsas missiyası müasir bazar araşdırması və innovativ üsullarla ixrac sahəsində yaranan yeni imkanları dəyərləndirməkdir. Mərkəzin dəstəyi ilə qeyri-neft ixracını həyata keçirən şirkətlər vaxt və maliyyə xərclərinə qənaət etməklə, xarici bazarların operativ, etibarlı və spesifik araşdırmalarını həyata keçirəcək, o cümlədən brend və məhsul təbliğatını aparacaq, potensial müştərilərə informasiya çatdıracaq. DMM Azərbaycanın rəqəmsal marketinq bazarı barədə dövrü hesabatlar hazırlayaraq, yerli ixracatçılar üçün digital informasiya bazası formalaşdıracaq.

Təlim mərkəzi kimi də fəaliyyət göstərən DMM xarici ekspertlərin online vebinarlarını, o cümlədən ölkənin tanınmış ekspertlərinin təlim və seminarlarını təşkil edəcək. Eyni zamanda, sosial media marketinq sahəsində mütəxəssis hazırlığını həyata keçirəcək. Geniş istifadəçi auditoriyasına malik olan Facebook, Youtube, LinkedIn, Twitter, Instagram kimi sosial şəbəkələrin idarəedilməsi və effektiv reklamçılıq fəaliyyətlərini öyrədəcək. Mərkəz UNEC startaplarına rəqəmsal marketinq dəstəyi göstərməklə yanaşı, bu sahə üzrə mütəxəssislərin görüşünü də təşkil edəcək. Həmçinin, Google AdWords və Google AdSense rəqəmsal marketinq üzrə online sertifikat imtahanlarını təşkil edəcək.

Qlobal Rəqəmsal Marketinq Assosasiyası və Rəqəmsal marketinq İnstitutu ilə əməkdaşlıq etməyi nəzərdə tutan DMM ildə bir dəfə araşdırma sahələri üzrə perspektivləri dəyərləndirmək üçün Digital Marketing Forumu təşkil edəcək.

# UNEC-də Xarici Ticarətə Dəstək Mərkəzi fəaliyyətə başlayır

Mərkəz ölkədə ixracyönümlü sektorların inkişafı yolu ilə iqtisadi artımı təmin etmək məqsədilə sahibkarları və ixracatçıları dəstəkləyəcək, o cümlədən onlara ixrac üzrə məsləhət verəcək.

Dövlət orqanları, elm və təhsil qurumları, korporativ sektorlarla qarşılıqlı fəaliyyət göstərəcək mərkəzdə investisiyalar və ixracat imkanları üzrə məlumat bazası yaradılacaq, ölkə ixracatçılarının məhsuluna uyğun xarici bazarların seçilməsinə və potensial müştərilərlə danışıqların aparılmasına hüquqi dəstək göstəriləcək.

Sahibkarlar ixrac edəcəkləri ölkələrin idxal prosedurları, gömrük və sertifikatlaşdırma qaydaları barədə məlumatları da mərkəzdən əldə edə biləcəklər. İxrac nəzarəti sahəsində və xarici ticarət fəaliyyətinin tənzimlənməsi haqqında qanunvericilik aktları ilə bağlı təkliflər hazırlanmasında yaxından iştirak edərək, sahibkarlığın inkişafına dəştək olacaq. Qurum ölkədə ixracatçılara yardım göstərmək və qeyri-neft məhsullarının ixracını təşviq etmək məqsədilə onlara beynəlxalq ticarət qaydaları haqqında məlumat verəcək.

# STRATEJİ YOL XƏRİTƏSİNİN (SYX-nin) HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ MÜLAHİZƏLƏR

**Bu, bir danılmaz həqiqətdir ki, SYX-də Azərbaycan iqtisadiyyatının müasir dövrdə üzləşdiyi problemlər və onların həlli yolları ilə yanaşı, gələcək inkişaf strategiyası olduqca dərin, əlaqəli və məntiqi əsaslarla müəyyən edilmişdir. SYX-də milli iqtisadiyyatın inkişafına zaman müddəti kəsiyindən asılı olaraq mərhələlərlə baxılmış və hər bir mərhələ özündən sonrakı mərhələ üçün bazis rolunu oynayır.**



**A.H.Tağıyev,**
**Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki**

Burada biz SYX-nin həyata keçirilməsi ilə bağlı olan yalnız iki məsələyə toxunacağıq. Bunlardan birincisi, SYX-nin reallaşdırılmasının idarə edilməsi, ikincisi isə SYX-nin həyata keçirilməsi məqsədilə innovasiya mühitinin formalaşdırılması məsələsidir. Dünya təcrübəsində olduqca mürəkkəb layihələrin həyata keçirilməsini idarə etmək üçün xüsusi qurum (struktur) yaradılır ki, bu qurum yalnız layihənin reallaşdırılmasının idarə edilməsi ilə məşğul olur. Yaradılan belə struktur müxtəlif cür adlandırılır.

SYX də olduqca mürəkkəb və çoxcəhətli layihə olduğundan onun həyata keçirilməsini idarə etmək üçün xüsusi qurum yaradılmalıdır. Bu, "SYX-nin həyata keçirilməsinin İdarəetmə Korporasiyası" adlandırıla bilər. Bundan sonra bu qurumu qısaca olaraq "Korporasiya" adlandıracağıq. Korporasiya mürəkkəb layihələrin həyata keçirilməsi tələbləri ilə yanaşı, özündə güclü idarəetmə komandası yaratmalıdır.

Korporasiyanın əsas vəzifəsi SYX-də nəzərdə tutulmuş, həyata keçiriləcək tədbirlərin idarə edilməsi, maliyyələşdirilməsi və monitorinqi ilə əlaqədar olacaqdır. Korporasiyanın tərkibinə aşağıdakı kimi funksional bölmələrin daxil olması zəruridir:

*- milli iqtisadiyyatın monetar siyasətini işləyib hazırlayan bölmə;*

*- səhm payının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və onların bir qisminin özəlləşdirilməsini həyata keçirən bölmə;*

*- insan kapitalının formalaşdırılması və inkişafı ilə məşğul olan bölmə;*

*- SYX-də milli iqtisadiyyatın seçilmiş 11 sektorunun hər birinin nəzərdə tutulmuş staregiyasının həyata keçirilməsini yerinə yetirən bölmələr.*

Korporasiya yaradılarkən ilk növbədə onun əsasnaməsi hazırlanmalıdır. Bu sənəddə korporasiyanın hüquq və vəzifələri, funksiyaları, tabeçiliyi, korporasiyanın idarəetmə sistemi, korporasiyanın hazırladığı hesabatlar və onların dövriliyi əhatə edilməlidir.

Korporasiyanın yaradılması və fəaliyyət istiqamətlərinin müəyyən edilməsinin geniş müzakirəyə ehtiyacı olduğundan yuxarıda qeyd edilənlərlə kifayətlənirik.

Burada toxunacağımız ikinci məsələ - SYX-nin həyata keçirilməsində mühüm rol oynayan ölkədə "innovasiya mühitinin" formalaşdırılmasıdır. Dünya təcrübəsi göstərir ki, artıq elə bir dövr yetişmişdir ki, "inkişaf" sözü "innovasiya" ilə sinonim kimi səslənir. Doğrudan da, elə bir sahə ola bilməz ki, onun inkişafı innovasiya və onun ukladları ilə bağlı olmasın.

Bu, heç də təsadüfi deyildir ki, Dünya İqtisadi Forumunda bildirildiyi kimi, Azərbaycan yüksək sürətli inkişafını görəcək, yaxın gələcəkdə - 2025-ci ildə o, yüksək mənfəətli innovasiyalı ölkələr sırasına çıxacaq.

Müasir dövrdə Azərbaycan Respublikasının dövlət siyasətinin vacib prioritetlərindən biri iqtisadiyyatın yeni inkişaf yoluna – innovasiya iqtisadiyyatına yönəldilməsidir. Bunun bazasını isə Azərbaycanda biliyə əsaslanan sahələrin və elmtutumlu texnologiyaların inkişaf etdirilməsi təşkil edir.

Azərbaycanda iqtisadi inkişafın innovasiya modelinin başlıca istiqamətləri "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır.

Konsepsiyada iqtisadiyyatın texnoloji cəhətdən müasirləşdirilməsi, elmi və elmi-texniki fəaliyyətin nəticələrinin keyfiyyətli artımı hesabına innovasiyalı inkişaf yoluna keçirilməsi, innovasiya fəaliyyətinin səmərəsini artırmaq kimi vacib məsələlər ön plana çəkilmişdir.

Deməli, SYX-də nəzərdə tutulmuş tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkəmizdə innovasiya mühitinin formalaşdırılması qaçılmazdır.

İnnovasiya mühiti dedikdə, innovasiyanın inkişafına hərtərəfli şərait və imkan yaradan, ona dəstək verən mühit nəzərdə tutulur. Bu mühitin yaradılmasına uzun bir inkişaf dövrü keçdikdən sonra dünyanın inkişaf etmiş ölkələri belə, tam nail ola bilməmişlər. Demək olar ki, hal-hazırda formalaşmaqda olan innovasiya iqtisadiyyatı innovasiya mühitinin təminatçısıdır.

İnkişaf etmiş dünya dövlətləri öz ölkələrində innovasiya mühiti tam formalaşmadan innovasiya fəaliyyətinin müvəffəqiyyətli inkişafına seçdikləri müxtəlif strategiyalar hesabına nail ola bilmişlər. Məsələn, Yaponiya II Dünya müharibəsindən sonra ölkədə elə innovasiya qurumları yaratmışdır ki, başqa ölkələrdə yığılıb qalmış elmi-tədqiqat işlərinin nəticələrini az bir müddətdə istehsala tətbiq edə bilmişlər. İsrail, Finlandiya innovasiya sahibkarlığının inkişafına daha çox üstünlük vermişlər.

**Çin Xalq Respublikası innovasiyanın əsas infrastrukturları olan texnoparkları və texnopolisləri ərazi üzrə elə yerləşdirmişlər ki, müəyyən qurşaqlar yaransın. Belə struktur seçiminin həyata keçirilməsi hesabına az bir müddətdə yeniliklər ölkənin digər regionlarına diffuziya etmişdir.**

Azərbaycan Respublikasında innovasiya mühitini formalaşdırmaq üçün onun əsas konsepsiyalarını müəyyən etmək lazımdır.

Apardığımız çoxillik araşdırmalar nəticəsində innovasiya mühitinin Azərbaycanda formalaşdırılmasının əsas konsepsiyalarını müəyyən etmişik və onlar aşağıdakılardan ibarətdir:

*- ölkədə vahid innovasiya siyasətinin hazırlanması;*

*- innovasiya siyasətinin bütün cəhətlərini həyata keçirmək üçün milli innovasiya sisteminin və onun sahəvi və regional altsistemlərinin yaradılması;*

*- innovasiyanın hüquqi bazasının yaradılması;*

*- innovasiya qurumlarının, o cümlədən innovasiya infrastrukturlarının yaradılması;*

*- yüksək texnologiyaların ölkədə inkişafının təmin edilməsi;*

*- innovasiya sahibkarlığının inkişaf etdirilməsi;*

*- ölkədə əhalinin innovasiya fəallığının yüksəldilməsi;*

*- insan kapitalının formalaşdırılması və s.*

Dövlətin innovasiya siyasəti onun sosial-iqtisadi siyasətinin tərkib hissəsidir. İnnovasiya mühitinin formalaşdırılması konsepsiyalarının içərisində innovasiya siyasəti əsas yer tutur. Digər konsepsiya istiqamətləri məhz innovasiya siyasətinin həyata keçirilməsinə xidmət edir.

Dövlətin innovasiya siyasətinin konkret məqsədləri olur və onlar kifayət qədər çoxdur. Bunlara misal olaraq ümumiləşmiş şəkildə aşağıdakıları göstərmək olar:

*- Yerli məhsulların rəqabətlilik qabiliyyətinin artırılmasını təmin edən elmi-texniki nəticələrin səmərəli istifadəsi, sosial-iqtisadi inkişaf məsələlərini həll etmək məqsədilə innovasiya fəaliyyətindən istifadə edilməsinə təşkilati şəraitin yaradılması;*

*- elmi-texniki potensialın inkişafı, səmərəli yerləşdirilməsi və istifadə edilməsi, onun strukturunun formalaşdırılması;*

*- ölkə iqtisadiyyatının inkişafının elmi və texniki nailiyyətlərlə zənginləşdirilməsini artırmaq, maddi istehsal sahələrində mütərəqqi struktur dəyişikliklərinin aparılması, onların səmərəliliyinin və rəqabətlilik qabiliyyətinin təmin edilməsinə yönəldilən mühüm sosial-iqtisadi məsələləri reallaşdırmaq;*

*- ölkənin müdafiə qabiliyyətini, insanların, cəmiyyətin və ekologiyanın təhlükəsizliyini möhkəmləndirmək və s.*

Qeyd edilənlərlə yanaşı, SYX-də seçilən 11 maddi istehsal sahəsinin inkişafı ilə əlaqədar olan məsələlərin həlli əsas məqsədlər kimi qəbul edilərsə, onda yenə də bu məqsədlərə nail olmaq üçün aparılan işlər innovasiya yönümlü olmalıdır. İnnovasiya yönümlü dedikdə, nəzərdə tutulan məqsədlərə nail olmaq üçün innovasiya iqtisadiyyatının əsas funksiyalarının yerinə yetirilməsilə yüksək innovasiya texnologiyalarından istifadə edilməsi nəzərdə tutulur.

Yuxarıda qeyd edilən məqsədlərə nail olmaq yolunda dövlətin öhdəsinə çox ciddi vəzifələr düşür: dövlətin innovasiya siyasətinin prioritetlərinin müəyyən edilməsi və onların reallaşdırılması; iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin təmin edilməsi; innovasiya fəaliyyətinin infrastrukturunun yaradılması və inkişaf etdirilməsi; beynəlxalq bazarlarda milli innovasiya məhsullarının müdafiəsi; innovasiya fəaliyyətinin inkişafında elmin, təhsilin, istehsalın və maliyyə-kredit sahəsinin qarşılıqlı əlaqəsinin təmin edilməsi; xalq təsərrüfatının inkişafının strategiya və tempini, onun struktur tarazlaşmasını təmin edən istiqamətlərdə iqtisadiyyatın inkişafını stabilləşdirmək üçün elmi-texniki potensialdan səmərəli istifadə edilməsi.

**(davamı var)**

# Milli Məclisin növbəti plenar iclasında



Oktyabrın 31-də Milli Məclisin növbəti plenar iclası keçirilib, iclasda əvvəlcə 38 məsələdən ibarət gündəlik təsdiqlənib.

İclasda Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə digər şirkətlər arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsini təqdim edib. Bildirib ki, yenilənmiş Saziş bu il sentyabrın 14-də Bakıda imzalanıb. İndiyədək, yəni 1995-2017-ci illər ərzində "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin icrası prosesində layihə üzrə ümumi xərclərin həcmi 43,5 milyard dollar təşkil edib. Bunlardan da əsaslı xərclər, yəni kapital qoyuluşları 35 milyard dollara yaxın olub. Layihənin icra olunduğu müddətdə Azərbaycanın payına düşən gəlirlər 130 milyard dollara yaxın mənfəət nefti şəklində çatıb. Podratçı tərəflər 15 milyard dollara yaxın mənfəət vergisi ödəyib. SOCAR-ın ortaq şirkəti 5,9-6 milyard dollar məbləğində mənfəət nefti qazanıb. Bunlarla yanaşı, müqavilə sahəsi üzrə texnoloji ehtiyaclar üçün işlədilməmiş 42 milyard kubmetrə yaxın həcmdə təbii səmt qazı ödənişsiz çatdırılma məntəqəsində dövlətə təhvil verilib.

Vitse-spiker qeyd edib ki, müqavilə müddətinin uzadılması və Sazişin yenilənməsi uzaqgörənliklə atılmış addımdır. Çünki müqavilənin əvvəlki müddəti 2024-cü ilə qədər nəzərdə tutulduğundan qarşıdakı 7 ildə hasilat aşağı düşəcəkdi. Onu sonradan bərpa etməksə çox çətin olacaqdı.

Plenar iclasda müzakirə zamanı qeyd olunub ki, Azərbaycan Prezidentinin siyasi iradəsi sayəsində istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı tarixi qələbədir. Hazırda parlamentin müzakirəsinə verilmiş yeni neft-qaz Sazişi də iqtisadi baxımdan ölkəmizin qüdrətini daha da möhkəmləndirəcək. Milli Məclis Sazişi qəbul və təsdiq edib, həyata keçirilməsinə razılıq verib.

İclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri ***Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Standartlaşdırma və Metrologiya üzrə Əmirlik Orqanı arasında uyğunluq sertifikatlarının və uyğunluq nişanlarının qarşılıqlı tanınması haqqında" Anlaşma Memorandumu və "Azərbaycan Respublikası Hökuməti ilə Bermud Adaları Hökuməti arasında uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsinə dair" Saziş barədə məlumat verib.***

Deputatlar hər iki sənədin təsdiqini məqsədəuyğun sayıblar.

Gündəlikdəki növbəti iki qanun layihəsini aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov təqdim edib. Bildirib ki, "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda edilən dəyişikliklər yaşıllıqların mühafizəsi sahəsində qanunvericiliyin dəqiqləşdirilməsi, yaşıllıqların uçotu, kadastrı və monitorinqi sahəsində idarəetmənin təkmilləşdirilməsi, yaşıllıqların salınmasının stimullaşdırılması, həmçinin bərpası üçün əkin materialları və digər vasitələrlə təminatı məsələlərinin həlli məqsədini daşıyır.

Məlumat verilib ki, "Çaycılıq haqqında" Qanunun 10-cu maddəsində aparılan dəyişiklik qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır. Layihəyə əsasən, bu sənəd "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Qanuna və "Toxumçuluq haqqında" Qanunda dəyişiklik edilməsinə dair 2017-ci il 14 aprel tarixli Qanuna uyğunlaşdırılacaq. Hər iki qanun layihəsi qəbul olunub.

Qanunvericiliyin uyğunlaşdırılması baxımından "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2016-cı il 14 oktyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar gündəliyə üç məsələ daxil edilmişdi. Ölkəmizdə sərnişindaşıma sahəsində yeni ödəmə alətlərinin tətbiqi ilə əlaqədar Mülki Məcəllənin 842-ci maddəsinə, "Avtomobil nəqliyyatı haqqında" Qanunun bir sıra maddələrinə və "Nəqliyyat haqqında" Qanunun 13-cü maddəsinə təklif olunan dəyişikliklər şərh olunduqdan sonra hər üç qanun layihəsi qəbul edilib.

Deputatlara məlumat verilib ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna təklif olunan dəyişikliklər həmin yoxlamaların dayandırılması müddətinin uzadılmasını nəzərdə tutur. Həmçinin insanların həyat və sağlamlığının qorunması ilə bilavasitə bağlı olan yoxlamaların aparılmasını, yəni, dərman vasitələrinin keyfiyyəti və təhlükəsizliyi qaydalarına riayət edilməsi, qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamaları təmin etmək məqsədi daşıyır.

Fikir mübadiləsindən sonra layihə səsə qoyulub və qanun qəbul edilib.

"Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsinə dair məsələnin müzakirəsi zamanı bildirilib ki, sənəd "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2016-cı il 14 oktyabr tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Qanunun qüvvədə olan mətnindən fərqli olaraq yeni layihə cinayət əlamətləri olan hüquqpozmalarla yanaşı, inzibati xəta əlamətləri olan hüquqpozmalarla bağlı materialların da aidiyyəti üzrə göndərilməsini nəzərdə tutur.

Plenar iclasın gündəliyindəki növbəti 9 qanun layihəsini hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli şərh edib.

Sonra parlamentə məlumat verilib ki, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Qanunda dəyişikliklər qanunsuz balıq ovu ilə mübarizəni gücləndirmək məqsədi daşıyır.

Sənəd səsə qoyulub və qəbul edilib.

Bildirilib ki, dövlət başçısının 2017-ci il 30 may tarixli Sərəncamına əsasən, Prezident Administrasiyasının strukturunda aparılmış dəyişikliklərlə əlaqədar olaraq, "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi zərurəti meydana çıxıb.

# 550 milyon dollarlıq ixrac gözlənilir

**"Vaşinqtonda Azərbaycan kənd investisiya layihəsinin nümayişi keçirilib. Dekabrda isə bu təqdimat Çikaqoda baş tutacaq".**

Bunu 1 noyabr - Kənd təsərrüfatı işçilərinin peşə bayramı münasibətilə Bakıda keçirilən tədbirdə çıxış edən Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov deyib. H.Əsədov il ərzində ixracdan əldə olunan gəlirlərə də toxunub: "Bu ilin 9 ayında kənd təsərrüfatı ixracından 396 mln. dollar əldə etmişik. İlin sonuna bu rəqəmi 550 mln. dollar səviyyəsində gözləyirik".

Nazir kənd təsərrüfatı sahəsində çalışanlara verilən güzəştli yardımlardan da danışıb: "Bu vaxta qədər 8 100 fermerə 181 mln. manat yardım edilib. Ölkədə maldarlıq sahəsində süni mayalanma da inkişaf edib. Hazırda hər gün süni mayalanma yolu ilə 100 buzov doğulur ki, bu da hər gün 10 min manat yardım deməkdir".

# Sahibkarlığa Kömək Milli Fondu 1270 layihənin icrasına 96 milyon 496,4 min manat güzəştli kredit verib




Yanvar-sentyabr ayları ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu (SKMF) 1270 layihənin icrası üçün 96 milyon 496,4 min manat məbləğində güzəştli kredit verib.

SKMF-yə istinadla xəbər verilir ki, bu, 1228 layihənin reallaşması üçün ayrılan 13 milyon 394,9 min manat kiçikhəcmli kreditləri, 17 layihənin icrası üçün 4 milyon 594 min manat ortahəcmli kreditləri, 25 layihənin icrası üçün 78 milyon 507,5 min manat isə böyükhəcmli kreditləri əhatə edib.

Doqquz ayda sahibkarlara verilən kreditlərin 2,8 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalına, 0,4 faizi kənd təsərrüfatı məhsullarının emalına, 96,2 faizi kənd təsərrüfatı məhsullarının istehsalına, 0,4 faizi turizmin inkişafına, 0,2 faizi xidmət (infrastruktur) sahələrinin inkişafına yönəldilib.

SKMF tərəfindən ayrılan güzəştli kreditlər hesabına 3 881 yeni iş yeri yaradılacaq.

# AÇG- dən dünya bazarına 459 mln. ton Azərbaycan nefti çıxarılıb

Oktyabrın 1-dək dünya bazarında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərinsulu hissəsindən çıxarılan və Azərbaycanın payına düşən 246 milyon ton mənfəət nefti satılıb.

Bunu SOCAR-ın birinci vitse-prezidentinin müşaviri Ələkbər Abbasov noyabrın 1-də Bakıda keçirilən Neft-qaz Mühəndisləri Cəmiyyətinin (SPE) İllik Xəzər Texniki konfrans və sərgisində deyib. Onun sözlərinə görə, işlənmənin əvvəlindən indiyədək "AÇG"-dən 438 milyon ton neft və 138 milyard kubmetr təbii qaz hasil edilib. Eyni zamanda, dünya bazarına 459 milyon ton Azərbaycan nefti çıxarılıb və bunun 342 milyon tonu Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilib.

Ələkbər Abbasov həmçinin deyib ki, oktyabrın 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum) ilə Gürcüstana 6,5 milyard kubmetr, Türkiyəyə isə 48,5 milyard kubmetr qaz nəql edilib. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz kondensat yatağından işlənmənin əvvəlindən indiyədək 86 milyard kubmetr qaz və 21,5 milyon ton kondensat hasil olunub.

# Naxçıvan məhsulları Türkiyəyə rüsumsuz ixrac ediləcək



Türkiyənin İğdır şəhərində Türkiyə-Azərbaycan biznes forumu keçirilib. Öz işinə başlayan Türkiyə-Azərbaycan biznes forumunda Azərbaycan və Türkiyə tərəfindən rəsmilər, Naxçıvan Muxtar Respublikasından və Türkiyənin müxtəlif bölgələrindən olan iş adamları iştirak edib.

İğdır valisi Ənvər Ünlü tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan-Türkiyə əlaqələrinin dinamik inkişaf etdiyini, biznes forumun İğdırda keçirilməsinin əhəmiyyətini vurğulayıb, Türkiyənin İğdır bölgəsi və Naxçıvan Muxtar Respublikası sahibkarlarının bir sıra konkret sahələr üzrə birgə layihələr həyata keçirməsini təklif edib.

Türkiyənin İqtisadiyyat naziri Nihat Zeybekçi, İğdır Ticarət və Sənaye Palatasının rəhbəri Kamil Arslan çıxışlarında növbəti Türkiyə-Azərbaycan biznes forumunun İğdırda keçirilməsindən və iki ölkə arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, əməkdaşlıq imkanlarına, həyata keçirilən layihələrə, ticarət dövriyyəsinin artırılması sahəsində görülən işlərə dair fikirlərini bölüşüblər. İki ölkə arasında qardaşlıq əlaqələrindən danışan Nihat Zeybekçi Türkiyə Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikasında istehsal edilən və ya istehsal potensialı olan 43 adda məhsulun (13 kənd təsərrüfatı, 30 sənaye məhsulu) Türkiyənin bütün ərazisinə idxal rüsumu ödəmədən, güzəştli şərtlərlə daxil olmasına razılıq verildiyi, bu qərarın ticarət əlaqələrinin genişlənməsinə və bölgənin inkişafına əhəmiyyətli töhfə verəcəyini vurğulayıb. Qərara əsasən, Naxçıvan Muxtar Respublikasında istehsal olunan illik təqribən 100 milyon ABŞ dolları məbləğində məhsullar Türkiyəyə rüsum ödəmədən ixrac ediləcək.

Türkiyə Cümhuriyyətinin yaranması günü münasibətilə Türkiyə tərəfini təbrik edən Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dünyada bir örnəkdir və ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında dövlət başçılarının siyasi iradəsi və irəli sürdükləri təşəbbüslər mühüm rol oynayır. Növbəti dəfə keçirilən Türkiyə-Azərbaycan biznes forumu da ölkələrimiz arasında əməkdaşlığın nə qədər güclü olduğunu bir daha təsdiq edir və ticarət əlaqələrinin genişləndirilməsi baxımından vacibdir. İğdırın Naxçıvan Muxtar Respublikası vasitəsilə olmaqla Azərbaycanla Türkiyənin yeganə sərhəd bölgəsi olduğunu qeyd edən nazir Şahin Mustafayev Türkiyənin hər zaman Naxçıvana dəstək göstərdiyini, blokadada olan Naxçıvanın 90-cı illərin əvvəllərində qarşılaşdığı çətinliklərdən çıxmasında Türkiyə ilə olan əlaqələrin, xüsusilə ümummilli lider Heydər Əliyevin böyük səyi və Türkiyənin dəstəyi ilə ərsəyə gəlmiş "Ümid" körpüsününün mühüm əhəmiyyətini vurğulayıb. Sürətli inkişaf yolu keçmiş Naxçıvan Muxtar Respublikası hazırda davamlı olaraq inkişaf edir.

Bildirilib ki, 2016-cı ildə Ankarada keçirilmiş Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 5-ci iclasında dövlət başçılarının təşəbbüsü ilə Naxçıvan istehsalı olan məhsulların Türkiyəyə ixracına iş adamları birlikləri vasitəsilə dəstək verilməsi məsələsi imzalanmış protokolda öz əksini tapıb. Bu müddət ərzində bu tapşırığın icrası məqsədilə bir sıra görüşlər keçirilib, Naxçıvana səfərlər təşkil edilib. Azərbaycan bu istiqamətdə Türkiyənin atdığı addımları yüksək qiymətləndirir.

İqtisadiyyat naziri Şahin Mustafayev Türkiyənin Nazirlər Kabinetinin Azərbaycanın blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasında istehsal olunan bir çox kənd təsərrüfatı və sənaye məhsullarının Türkiyə Respublikasına rüsumsuz ixracı barədə qərarının Naxçıvanın ixrac imkanlarının genişləndirilməsi baxımından xüsusilə önəmli olduğunu və Türkiyənin bölgədə yerləşən İğdır, Qars, Ərzurum vilayətlərinin inkişafı üçün də töhfə verəcəyini bildirib.

Qardaş Türkiyə ilə iqtisadi əlaqələrə gəlincə, nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, ölkələrimiz arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası fəaliyyət göstərir, Azərbaycanın strateji layihələri məhz qardaş Türkiyə ilə birgə həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi, "STAR", "PETKİM", "Enerji körpüsü" belə layihələrdəndir. Bu günlərdə istifadəyə veriləcək Bakı-Tbilisi-Qars dəmir yolu əlaqələrimizi daha da gücləndirməklə, ölkələrimizin tranzit imkanlarını artıracaqdır. Türkiyə Azərbaycanın əsas ticarət və investisiya tərəfdaşlarındandır. 2017-ci ilin yanvar-sentyabr aylarında ölkələrimiz arasında ticarət dövriyyəsində əhəmiyyətli artım müşahidə olunub. Hazırda Preferensial Ticarət Sazişi üzrə müzakirələr aparılır. Azərbaycanda Türkiyə sərmayələri əsasında 3 mindən çox, Türkiyədə isə Azərbaycan investisiyalı 2 minə yaxın şirkət fəaliyyət göstərir. Türkiyənin Azərbaycana investisiyaları 11,7 mlrd. ABŞ dolları, Azərbaycanın Türkiyəyə investisiyaları isə 10,1 mlrd. ABŞ dollarıdır. Diqqətə çatdırılıb ki, iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Biznes forum çərçivəsində müzakirə edilən məsələlər və aparılan danışıqlar da iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə, iş adamları arasında işgüzar əlaqələrin inkişafına xidmət edir. Nazir Şahin Mustafayev birgə səylərin iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirəcəyini və xalqlarımızın rifahına töhfə verəcəyini vurğulayıb.

Naxçıvan MR-in İqtisadiyyat naziri Famil Seyidov çıxışında Muxtar Respublikanın iqtisadiyyatı barədə forum iştirakçılarına məlumat verib, Türkiyə ilə iqtisadi əlaqələrin genişləndirilməsi, o cümlədən Naxçıvan məhsullarının bu ölkəyə ixracı üçün geniş imkanların olduğunu qeyd edib, son dövrdə bu sahədə görülən işləri diqqətə çatdırıb.

Biznes forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# LAHIC AZƏRBAYCAN XALQININ TARİXİ MƏDƏNİ DƏYƏRLƏRİNİ MÜKƏMMƏL BİÇİMDƏ TƏQDİM EDƏN UNİKAL MƏKANDIR

Son illər baş verən xoşagəlməz hadisələr, ölkələri ağuşuna almış iqtisadi və maliyyə böhranları, terror, müharibələr qlobal aləmdə ciddi narahatlıqlar doğurub. Dünya birliyinin üzvü olaraq Azərbaycan Respublikası mövcud vəziyyətlə əlaqədar adekvat tədbirlər görür, islahat proqramları həyata keçirir. Böhranlar bütün dönəmlərdə olub. Əsas məsələ odur ki, böhrandan sonrakı dövr üçün strateji xətt və hədəflər düzgün müəyyən edilsin və situasiyalara uyğun konkret addımlar atılsın. Məhz cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən konseptual proqramlar nəticəsində ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyasının dərinləşdirilməsi təmin olunmuş və bütün sahələrdə artım dinamikası özünü göstərmişdir. Prioritetlər sırasında turizmin inkişafı da özünə yer almışdır. Dövlət başçısı bəyan etmişdir ki, təbii-coğrafi imkanlarına görə Azərbaycanda turizm sahəsində ciddi uğurlar əldə etmək olar. İqtisadi diversifikasiya strukturlarında turizmin özündə də şaxələnmə prosesi gedir.

Artıq turizmin bir sıra növləri – dağ turizmi, kənd turizmi, ekoturizm, aqroturizm kimi yeni növlər formalaşıb. Bu növlərin hər biri üzrə Azərbaycan böyük potensiala malikdir. Mavi gözlü Xəzərdən tutmuş, Şahdağa, Kəpəzə, Böyük Qafqazın ətəklərinə qədər hər yan əsrarəngiz və füsunkar məkanlardır. Belə gözoxşayan, axarlı-baxarlı guşələrdən biri də İsmayıllı rayonudur. Lahıc qəsəbəsindən, onun tarixi keçmişi, bugünü və gələcəyi barədə söhbət açacağıq. Öncə onu deməliyik ki, ecazkar tarixi məkanlardan söhbət düşəndə İlisu, Xınalıq, Dəmirçi, Qobustan, Lahıc və digər məkanlar göz önünə gəlir. Çağdaş dönəmdə turizm baxımından belə ərazilər müstəsna əhəmiyyət kəsb edir. Bu mənada onların mükəmməl ölçü-biçimə gətirilərək, dünyaya təqdim edilməsi olduqca vacibdir. Lahıcın tarixi bizi erkən orta əsrlərə çəkib aparır. Belə ki, Lahıc Girdiman vilayətinin mühüm yaşayış məntəqəsi olmuş, sonralar isə Layzan şahlığının inzibati-siyasi mərkəzi, həm də Girdiman feodallarının yay iqamətgahı kimi tanınmışdır.

**Lahıc bu gün, sözün əsl mənasında, açıq havada muzeydir. İnsan toplumlarının yer kürəsinə xaotik şəkildə səpələndiyi, primitiv həyat və məişət tərzi keçirdiyi dönəmlərdə Lahıcda yüksək şəhərsalma mədəniyyəti olmuşdur.** Daş döşənmiş küçə və meydançalar, yağıntıların küçələrdə relyefə uyğun şəkildə tənzimlənməsi, uzun illər qüsursuz işləyən kanalizasiya şəbəkəsi, mükəmməl su təchizatı sistemləri insanı heyrətə gətirir. Avropada belə infrastruktur bir neçə əsr sonra - XVI-XVII əsrlərdə yaranmışdır. Həm də bunları mühafizə edib saxlamaq o qədər də asan olmamışdır. Hücumlar, müharibələr, talanlar Lahıca da ziyan vurmuş, zaman-zaman maddi mədəniyyət abidələri, ərazilər dağıntılara məruz qalmışdır. Ancaq nə qədər çətin yollardan keçsə də, o, yer üzündən silinib getməmişdir. Lahıc ərazisi iki mühüm hissədən ibarətdir: Ərəgit və Lahıc. Onları bir-birindən Lülo çayı ayırır. Ərəgit özü iki hissəyə bölünür: aşağı məhəllə və yuxarı məhəllə. Yuxarı məhəllədən oxumuş, savadlı adamlar çox çıxdığına görə, buraya ziyalılar məhəlləsi deyirlər. Lahıcda 7 məhəllə var: Zəvərə, Muradan (Muradlılar), Ağalı, Bədxan, Piştə (Arxa), Dərhəsən və Dulus. Lahıc məhəllələrindən hər birinin spesifik xüsusiyyətləri, döngələri, dalanları, bulağı, məscidi, hamamı, dəyirmanı və mədrəsəsi olmuşdur. Həm də bu küçələrin hər birində müxtəlif sənət növləri ilə məşğul olan sənətkarlar yaşamışlar. Məsələn, Zəvvərə məhəlləsində dabbaqlar, Muradan məhəlləsində dəmirçilər, Bədxan məhəlləsində başmaqçılar, Ağalı məhəlləsində misgərlər, Dulusçular məhəlləsində isə ən çox saxsı qablar hazırlayan sənətkarlar yaşayıblar.



Lahıcın tikililəri büsbütün daşdan olub. Evlər iki mərtəbəli, hətta üçmərtəbəli tikilib, həyətlər çox da geniş olmayıb. Lahıcdan olan sənətkarlar zaman-zaman Azərbaycanın digər əyalətlərinə köçərək, həmin yerlərdə misgərlik, dəmirçilik, dulusçuluq və s. sənət növlərini geniş yaymışlar. Hətta Lahıc adı ilə bəlli olan yaşayış məntəqələri və məhəllələri də yaranmışdır. Zaqatala və Göygöl rayonlarındakı Lahıc kəndlərini buna misal çəkmək olar. Lahıc əsrlər boyu Şirvanın çox mühüm sənətkarlıq mərkəzlərindən biri olub. Tarixi mənbələr göstərir ki, X-XI əsrlərdə burada sənətkarlıq yüksək inkişaf səviyyəsinə çatıb. Ayrı-ayrı mənbələrin və müəlliflərin məlumatlarına görə, Lahıcda misgərlik, dəmirçilik, dabbaqlıq, silahqayırma, qalayçılıq, kömürçülük, dulusçuluq, xalçaçılıq, daşyonma, zərgərlik, bənnalıq, dülgərlik, papaqçılıq və s. kimi sənət növləri geniş yayılmışdır. Bu qədər sənət növlərinin kiçik bir məkanda cəmləşməsi təəccüb doğurmaya bilməz. Lahıcda insanların 127 növ sənətlə məşğul olduğu məlumdur. Lakin bununla yanaşı, Lahıcda əkinçilik, heyvandarlıq da inkişaf etmişdir.

**XIX əsrin 60-70-ci illərində Lahıcda yaşayan 6915 nəfərin 1000 nəfəri ancaq misgərliklə, 1454 nəfəri isə digər sənət növləri ilə məşğul olmuşlar. Misgərlik üçün mis Gədəbəyin mis mədənlərindən və Borçalı mahalından gətirilirdi.**

Məlumatlara görə, Lahıcın mis qablarına qonşu ölkələrdə böyük tələbat var idi. 1836-cı ilin mənbələrinə görə, Lahıc qabları ilə bütün müsəlman əyalətləri, Tiflis, Dağıstan, Türkiyə və İran təmin olunurdu.

Mis qabların satışı ilə məşğul olan tacirlər el-el, oba-oba gəzərək həmin məmulatları satırdılar. Lahıcın əhalisi misgərliklə yalnız əkinçilikdən boş qalan vaxtlarda yox, bütün il boyu məşğul olurdular. Burada hər bir misgərin kiçik fabrikə oxşayan dükanı var idi. Lahıcda həm müdafiə, həm də hücum xarakterli silahların istehlakı geniş yayılmışdı. Rus mənbələrinin 1832-ci ilə aid məlumatlarında göstərilir ki, Lahıcda 8 silah zavodu olmuşdur. Bu zavodlarda ordu silahlarının, xəncər və pistoletlərin ən yaxşı nümunələri hazırlanırdı.

Lahıc bir neçə əsr ərzində Azərbaycanın mühüm sənətkarlıq mərkəzlərindən biri olub. Lahıc sənətkarlarının və ustalarının şanı-şöhrəti hər yana yayılmışdı. Buranın misgərləri, xalçaçıları, silahbazları xarüqələr yaratmışlar. Onların yaratdıqları sənət nümunələri Azərbaycan tarixində özünə dəyərli yer tutur, öyrənilməyə, tədqiq edilməyə layiqdir. **Lahıc ustalarının tarixin müxtəlif dönəmlərində yaratdıqları sənət inciləri bədii-texniki və sənətkarlıq vəziyyətlərinə görə yüksək qiymətləndirilib, muzeylərin və şəxsi kolleksiyaların bəzəyinə çevrilib.**

70-ci il Sovetlər Birliyində başqa sahələrdə olduğu kimi, Azərbaycanın da tarixi-mədəni abidələrinə qısqanclıqla yanaşılıb, bərpa-rekonstruksiya işlərinin aparılmasına icazə verilməyib, bu axında qədim Lahıc da inkişafdan kənarda saxlanılıb. Lakin milli-mənəvi dəyərlərin arxa plana keçirilməsinə yönəlik tədbirlərin heç biri fayda vermədi, Lahıc tarix səhnəsindən silinmədi və özünü bugünkü nəsillərə mükəmməl biçimdə çatdıra bildi. Yalnız 90-cı illərin əvvəllərində Azərbaycan ikinci dəfə öz müstəqilliyinə qovuşduqdan sonra milli-mənəvi dəyərlərimizə sahib olmaq imkanı qazandı. Bu isə o qədər də asan başa gəlmədi. Müharibə, xaos, daxili çəkişmələr, hakimiyyət hərisliyi nəinki milli dəyərlərimizi, hətta yenicə qazanılmış istiqlalımızı itirmək vəziyyətinə gətirib çıxardı. Lakin nicat yeri qalmışdı. Xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə dəvət olunan ulu öndər Heydər Əliyevin qətiyyəti, möhkəm iradəsi sayəsində dövlətçiliyimizi qoruyub saxlamaq mümkün oldu. Bununla da milli-mənəvi dəyərlərimiz də, tarixi abidələrimiz də özümüzə qaytarıldı. Tarixin yadigarı olan abidələr, binalar, məscidlər, ziyarətgahlar, emalatxanalar bərpa olunmağa, yenidən qurulmağa başlandı. Ulu öndərin ideya baxışlarını, görmək istədiyi işləri tükənməz enerji və yaradıcılıqla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin sosial-iqtisadi və mədəni həyatında tarixin heç bir dönəmində misli-bərabəri olmayan köklü islahatlara başladı. Azərbaycanın hər bir bölgəsi Dövlət Proqramları çərçivəsində tikinti-quruculuq meydanına çevrildi.

Son on iki il ərzində maddi mədəniyyət abidələrimizə ikinci həyat bəxş edildi və bu istiqamətdə işlər davam etdirilir. Bu sırada qədim Lahıc da xüsusi diqqət və qayğı ilə əhatə olunub.

Bu gün Lahıc qonaqlı-qaralıdır, buraya təşrif buyuran turistlərin sayı ilbəil artır. Bununla bərabər, qarşıda çox ciddi vəzifələr durur. Lahıc və digər unikal, möcüzəli məkanlarımız qlobal anlamda tanınmış turizm mərkəzinə çevrilməlidir. Bu isə regionların yüksəlişi, əhalinin firavan həyatı, doğma Azərbaycanımızın şöhrəti və qüdrəti deməkdir.

**ZÜLFÜ İLYASOV,**
**bölgə müxbiri,**
**İsmayıllı rayonu**

# Подключись к конкурсу «Наука посредством Медиа» Центра Barama




Медиа Центр Barama - лаборатория саморазвития студентов, находящаяся в Бакинском Государственном Университете, при поддержке Azercell и PASHA Bank, дает старт проекту «Science via Media», который является грандиозным шансом для молодежи! Проект «Science via Media» состоится в соревновательном формате и будет нацелен на повышение интереса молодежи к науке, образованию и саморазвитию посредством доведения научных объяснений до общества на популярном медиа-языке. Прием участников продлится в течение 1 месяца и 15 дней, начиная с 30 сентября, а в последующие 10 дней состоится оценка путем голосования.

Главное условие участия в конкурсе – научное объяснение теорий или теорем, открытых в мире до сих пор или находящихся на стадии открытия, касательно которых продолжаются научные исследования, в 90-секундном видеоролике и попытаться довести суть до зрителей на самом высоком уровне посредством своих идей.

«Science via Media» в отличие от монотонных навыков обучения, будет способствовать вовлечению молодежи в освещение практической и невидимой области науки, информированию как молодежи, участвующей в конкурсе, так и общества, а также извлечению ими пользы, посредством видеороликов, подготовленных для конкурса.

Победители будут определены жюри и путем голосования в формате 50/50 на канале «YouTube».

Победители первых 3-х мест получат особые ценные призы. А обладатели следующих мест будут награждены поощрительными призами.

# Компания Bakcell в очередной раз получила сертификат «Socially Devoted»

Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане, компания Bakcell во второй раз за 2017 год, удостоена сертификата "Socially Devoted" (социально ориентированный) за количество ответов на вопросы клиентов в социальной сети Facebook.

Так, во втором и третьем квартале текущего года, компания Bakcell продемонстрировала самый высокий результат (100%) по уровню ответов на вопросы абонентов, заданных на странице компании в социальной сети Facebook.

Присутствие в социальных медиа возлагает на бренды большую ответственность, не только по качеству предоставляемого контента, но и по своевременному и оперативному реагированию на вопросы и отзывы своих клиентов и других пользователей страницы. Для любой страницы, высокий коэффициент предоставления ответов на вопросы и отзывы пользователей ("Response Rate") является важным показателем эффективности онлайн службы обслуживания клиентов.

Компания Bakcell уже не раз получала сертификат «Socially Devoted» за высокие показатели "Response Rate", при этом каждый раз улучшая эти результаты, достигнув за последние годы отметки в 100%.

Социальные медиа являются одним из самых важных средств коммуникации компании Bakcell, с точки зрения предоставления информации о продуктах и услугах широкой клиентской аудитории, а также предоставления ответов на вопросы клиентов. Компания имеет активные страницы во многих популярных социальных сетях.

# Семинар компании «Statoil Azerbaijan» в Бакинской Высшей Школе Нефти

В Бакинской Высшей Школе Нефти (БВШН) прошел семинар «Late Life Reservoir Management» («Разработка пластов на завершающем этапе эксплуатации»), который провела компания Statoil – крупнейшая нефтегазовая компания Норвегии. Его участниками стали ректор БВШН Эльмар Гасымов, Президент Statoil Azerbaijan Фавад Гурайши, ответственные сотрудники компании, студенты и преподаватели Высшей школы. Семинар провел главный советник Statoil Azerbaijan по технологиям разработки пластов Гурбат Агаев, имеющий более чем 30-летний опыт работы в нефтегазовой индустрии.

Открывая семинар, ректор Эльмар Гасымов отметил необходимость и важность подобного рода инициатив и выразил благодарность Президенту Statoil Azerbaijan Фаваду Гурайши и ведущему семинара ГурбатуАгаеву за его организацию. В своем выступлении ГурбатАгаев подробно остановился на деятельности компании Statoil, международных проектах и успехах компании, рассказал о ходе разработки Статфьорд – одного из самых крупнейших нефтегазовых месторождений в акватории Северного моря. Он также выступил с презентацией, посвященной, в частности, таким темам, как структура и методы разработки нефтегазовых месторождений, параметры пластов, стратегии по уменьшению давления в закрытых пластах, последние тенденции и разработки в этой области. Затем он ответил на вопросы участников семинара.

Гурбат Агаев работает в Statoilc 1999 года, куда он пришел, имеязаплечамиболее 12-летний опыт работы как ученый-исследователь и инженер по разработке нефтегазовых месторождений в различных компаниях в Азербайджане, России и Норвегии. Его профессиональный опыт включает деятельность как в Норвегии, так и за ее пределами в Statoil и компаниях, являющихся партнерамиStatoil.

# Очередной 100%-ный результат от Azercell

Компания Azercell Telecom, для которой удовлетворенность абонентов всегда на первом месте, также продолжает предоставлять своим пользователям высококачественное обслуживание в социальных сетях. Не случайно, что компания неоднократно удостаивалась сертификата «Socially devoted» именно за активную деятельность в социальных сетях. В третьем квартале этого года представители Azercell, ответив на 100% вопросов, заданных пользователями посредством официальной страницы Facebook, в очередной раз удостоились сертификата «Socially devoted». Ответы на многочисленные вопросы, адресованные абонентами Azercell, были оперативно представлены. Для того, чтобы удостоиться сертификата, проводится измерение уровня реагирования на количество растущих из года в год обращений пользователей страницы. Также отметим, что впервые в регионе именно компания Azercell запустила Службу Поддержки в Социальных сетях на своей странице Facebook.




Цель этих нововведений заключалась в обеспечении более тесного контакта с абонентами и оперативном информировании их о различных новшествах. В настоящее время абоненты Azercell имеют возможность получить высококачественное обслуживание 24/7, используя ресурсы шести различных социальных сетей: Facebook, Twitter, Disput.Az, Google+, YouTube и Instagram. Вопросы абонентов, заданные посредством любой из этих сетей, находят свои ответы, зачастую за считанные секунды.

# Оздоровительный центр «Аура» отличается в плане применения льгот, новинок и высокого обслуживания

В оздоровительном центре «Аура» расположены более 50 современных тренажеров для укрепления всех групп мышц, а также кардио тренажеры для укрепления сердечных мышц и избавления от лишнего веса, открытый и закрытый бассейны для взрослых и для детей, открытый теннисный корт, корт для сквоша, теннисный корт, солнечная терраса и летный сад. Длина закрытого бассейна составляет 25 метров, а глубина 1.70 метров.

Окна расположенного на втором этаже фитнес-зала выходят на бассейн.

Что придает клиентам дополнительную энергию для более интенсивной и эффектной тренировки. Посетителям центра предоставляются полотенца, тапочки, халаты, а также косметические средства. В спа-комнатах гостям предлагаются различные виды массажа.

В оздоровительном центре «Аура» занятия по по йоге, аэробике, пилатесу, боксу, теннису, сквошу и плаванию проводятся профессиональными тренерами. Приобревший в последнее время, широкую популярность пилатес укрепляет мышцы тела, увеличивает подвижность и улучшает общее физическое состояние организма. Возрастает интерес к этому виду спорта людей ведущих здоровый образ жизни. Сильно растет популярность фитнес бокса за последнее время. Практика показывает, что, для желающих быть здоровыми и сильными, фитнес бокса наиболее подходящий вид спорта. Данный вид спорта, в целом увеличивает силу и скорость тела, охватывая движения аэробики, обеспечивает сжигание лишних калорий и образует мощную систему мышц. Помимо этого, отсутствуют риски травм во время тренировок мышц и суставов. Фитнес бокс является одним из подходящих видов спорта создающего условия для образования единства физической силы и здорового духа.



В настоящее время в центре проходят различные акции со скидками.



# Azərbaycan və Litva arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçirilib



Oktyabrın 27-də Litvanın paytaxtı Vilnüs şəhərində Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçirilib. İclasda Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfdən həmsədri, vergilər naziri Fazil Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, Hökumətlərarası Komissiyanın Litva tərəfdən həmsədri, xarici işlər naziri Linas Linkyaviçyusun başçılıq etdiyi Litva nümayəndə heyəti, Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə, Litvanın Azərbaycandakı səfiri Valdas Lastauskas iştirak ediblər.

Litva Respublikasının xarici işlər naziri L.Linkyaviçyus hökumətlərarası komissiyanın fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib. Komissiyanın son iclasından keçən ötən müddət ərzində görülən işlər barədə məlumat verən nazir Komissiyanın fəaliyyətinin Azərbaycan və Litva arasında iqtisadi əməkdaşlığın genişlənməsində xüsusi rola malik olduğunu qeyd edib və ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb. L.Linkyaviçyus qeyd edib ki, Azərbaycan Cənubi Qafqazda Litvanın ən mühüm iqtisadi tərəfdaşıdır. Litva-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün çox böyük potensial var. Xüsusilə, yüksək texnologiyalar, neft-kimya, nəqliyyat, yeyinti sənayesi, toxuculuq sənayesi kimi sahələrdə əlaqələri inkişaf etdirmək lazımdır.

Litva öz növbəsində Azərbaycan-Avropa İttifaqı münasibətlərinin daha da inkişaf etdirilməsi üçün körpü rolu oynaya bilər. Komissiyanın həmsədri qeyd edib ki, "Şərq tərəfdaşlığı" proqramının iştirakçısı olan hər bir ölkə bu proqrama böyük ümid bəsləyir. Litva Azərbaycan ilə Aİ arasında əməkdaşlığın möhkəmləndirilməsinə yardım edə bilər. L.Linkyaviçyus vurğulayıb ki, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolu bütün dünyada məlumdur. Nazir qeyd edib ki, yeni "Əsrin müqaviləsin"-nin imzalanması Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırıb.

XİN rəhbəri Litvanın ali məktəblərində iki yüzdən çox azərbaycanlı tələbənin təhsil aldığını xüsusi qeyd edib və bu tələbələrin gələcək mütəxəssislər kimi hər iki ölkənin elçiləri olduğunu vurğulayıb.

İkitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədov 2010-cu ildən fəaliyyət göstərən Azərbaycan-Litva hökumətlərarası komissiyasının ötən dövr ərzində ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da dərinləşdirilməsinə sanballı töhfə verdiyini, siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində bir çox layihələrin reallaşdırılmasını dəstəklədiyini bildirib.

F.Məmmədov bu dövrdə ölkələrimizin dövlət və hökumət qurumlarının, bələdiyyələrin, işgüzar dairələrin nümayəndələrinin iştirakı ilə çoxsaylı qarşılıqlı səfərlərin olduğunu xatırladaraq, bununla yanaşı, ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün kifayət qədər böyük potensialın olduğunu vurğulayıb.

Qeyd olunub ki, son üç il ölkələrimizin regionları arasında əlaqələrin inkişafı baxımından daha səmərəli olub. 2014-cü ildə "Azərbaycanın Şəmkir və Litvanın Şyaulyay şəhərləri arasında qardaşlaşma münasibətləri yaradılması haqqında" Niyyət Protokolunun imzalanması ikitərəfli münasibətlərdə yeni mərhələ olub. Bu baxımdan Litvada istirahət mərkəzləri və müalicəvi kurortlar ilə məşhur olan Druskininkay şəhəri ilə Azərbaycanın məşhur müalicəvi mərkəzləri – Naftalan şəhəri və Naxçıvandakı Duzdağ kompleksi arasında əməkdaşlığın inkişaf etdirilməsi imkanları xüsusi qeyd edilməlidir.

F.Məmmədov Azərbaycanın iqtisadi imkanları və logistik potensialı barədə məlumat verərək qeyd edib ki, yaxın vaxtlarda Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə veriləcək. Vergilər naziri Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın müstəsna rolunu vurğulayaraq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən neft-qaz layihələri barədə məlumat verib.

Vergilər naziri Aİ ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi prosesində, o cümlədən Azərbaycan ilə Aİ arasında hərtərəfli saziş imzalanmasında Litvanın böyük dəstəyini xüsusi qeyd edib.

F.Məmmədov vurğulayıb ki, bununla bərabər, ikitərəfli əməkdaşlığın miqyası ölkələrimizin iqtisadi potensialına tam cavab vermir və bu potensialın tam səfərbər edilməsi Hökumətlərarası Komissiyanın işinin mühüm istiqamətlərindən biridir.

İclasda hər iki ölkənin iqtisadi durumu, ikitərəfli münasibətlərin inkişaf perspektivləri, müqavilə-hüquq bazasının inkişafı, energetika, kənd təsərrüfatı və ekologiya, gənclər və idman, mədəniyyət və turizm, təhsil və elm, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, gömrük, səhiyyə sahələrində, eləcə də Azərbaycan və Litvanın regionları arasında əməkdaşlıq məsələləri ətrafında geniş müzakirələr aparılıb. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin artırılması üçün mövcud imkanların səfərbər edilməsi və qarşılıqlı ticarətin həcminin artırılması və diversifikasiyası üçün səy göstərilməsinin vacibliyi, informasiya texnologiyaları, maliyyə, tikinti, enerji, elektronika, nəqliyyat və logistika sektorlarında biznes əlaqələrinin qurulması üçün geniş imkanlar olduğu qeyd edilib.

İclasın sonunda Azərbaycan ilə Litva arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının yekunlarına dair Protokol imzalanıb.

Protokola əsasən, tərəflər əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı maraqları nəzərə alaraq, bir sıra məsələlər barəsində razılığa gəliblər. Bunlara keçiriləcək sərgilər, konfranslar, biznes-forumlar barədə işgüzar dairələr üçün mütəmadi informasiya mübadiləsi, kimya və neft-kimya sənayesi, aqrokimya, əczaçılıq və tibbi avadanlıq üzrə ixtisaslaşan Litva şirkətlərinin Azərbaycanda yaradılmış sənaye parklarında, o cümlədən Sumqayıt kimya-sənaye parkında investorlar qismində iştirakının təşviq edilməsi daxildir.

İclasda "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında xidməti pasport sahiblərinin vizadan azad edilməsi haqqında Saziş" imzalanıb.

Bundan başqa, "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında məlumat mübadiləsi sahəsində və vergi tələblərinin alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumu" imzalanıb.

İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri, vergilər naziri F.Məmmədov səfər çərçivəsində Şərqi Avropanın qədim ali təhsil ocaqlarından biri olan Vilnüs Pedaqoji Universitetində açılmış Azərbaycan auditoriyasına da baş çəkib, universitetdə oxuyan Azərbaycanlı tələbələrlə görüşüb.

# Sahibkarlarla görüş keçirilib



Vergilər Nazirliyi və Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının birgə təşkilatçılığı ilə strateji yol xəritələri çərçivəsində kiçik və orta sahibkarlıq sahəsində səmərəli vergi sisteminin təşviq edilməsi məqsədilə vergi qanunvericiliyində və inzibatçılığında edilməsi zəruri hesab olunan dəyişikliklər müzakirə edilib.

Oktyabr ayının 27-də "HyattRagency" otelində Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının birgə təşkilatçılığı ilə kiçik və orta sahibkarlarla və ictimai birliklərin nümayəndələri ilə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan konfederasiyanın prezidenti Məmməd Musayev bildirib ki, ötən ilin sonunda dövlət başçısının müvafiq fərmanına uyğun olaraq "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" hazırlanmış 12 strateji yol xəritəsi sahibkarlığın, eləcə də kiçik və orta sahibkarlığın inkişafına mühüm töhfə verəcəkdir. Qeyd olunub ki, Vergilər Nazirliyi tərəfindən strateji yol xəritələrindən irəli gələrək kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə qəbul ediləcək qərarların səmərəliliyinin və şəffaflığının təmin edilməsi üçün silsilə tədbirlər keçirilir, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi ilə bağlı iş adamlarının qarşılaşdıqları problemlər və təkliflər öyrənilir, onların həlli istiqamətində məqsədyönlü işlər görülür.

Görüşdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov qeyd edib ki, Azərbaycanda son illər ərzində qeydə alınan sürətli iqtisadi inkişafda qeyri-neft sektoru ümumi iqtisadi artımda önə çıxmaqdadır. Ölkəmiz güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanaraq, bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilib. Nazir müavini qeyri-neft sektorunun inkişafında onun əsas sütunlarından biri kimi sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın fəaliyyətinə hərtərəfli dəstək verilməsinin vacibliyini vurğulayıb.

Vergilər Nazirliyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" və "Azərbaycan Respublikasının milli iqti-sadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə müvafiq hədəflər üzrə əsas icraçı qurumlarından biridir. Nazirlik strateji yol xəritələrində onun qarşısında müəyyən edilmiş vəzifələrin icrası prosesində bununla bağlı layihələr hazırlayarkən sahibkarlıq subyektlərinin təkliflərini əsas götürür və onlardan normativ sənədlərin hazırlanmasında istifadə edir.

Büdcə gəlirlərinin formalaşmasında hər bir vergi ödəyicisinin öz rolunun olduğunu bildirən Sahib Ələkbərov qeyd edib ki, şəffaf fəaliyyət göstərən və vergi orqanları ilə partnyorluq edən, gəlir və xərclərinin uçotunu düzgün şəkildə və vaxtlı vaxtında aparan, qanunvericiliyin tələblərinə tam əməl edən vergi ödəyicilərinin fəaliyyətinin təhlili göstərir ki, şəffaflıq daha əlverişli biznes mühitinin formalaşdırılmasının, həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının fəaliyyətinin daha səmərəli olmasının əsas şərtlərindən biridir.

# Ekspert: cinayət məsuliyyətinin aradan qaldırılması hüquqi mübarizənin dayandırılması anlamına gəlməməlidir



Cinayət Məcəlləsinə ediləcək dəyişikliklərlə bağlı hüquq üzrə fəlsəfə doktoru, ekspert Səbuhi Əliyev öz münasibətini açıqlayıb.

Onun sözlərinə görə, daim dəyişən, inkişaf edən, yeni münasibətləri formalaşdıran, lakin bu inkişaf ilə paralel hüquqazidd əməllərin yarandığı cəmiyyətdə münasibətlərin tənzimlənməsi, bu sahədə ümumi vəziyyətin təhlil olunması və lazımi iqtisadi-hüquqi tədbirlərin görülməsi olduqca vacibdir.

Bildiyimiz kimi, Cinayət Məcəlləsinə cəza sisteminin və ayrı-ayrı cinayət tərkiblərinin yaranmasının yenidən formalaşdırılmasını özündə ehtiva edən xeyli sayda dəyişikliklərin edilməsi təklif olunmuşdur və hazırda qanunverici orqan olan Milli Məclis bu təklifləri müzakirə edir. Qeyd olunan təkliflərin qəbul ediləcəyi təqdirdə Cinayət Məcəlləsinə kompleks dəyişikliklər edilmiş olacaqdır ki, bu dəyişikliklər içərisində yeni cəza növü olan azadlığın məhdudlaşdırılması əsas cəza növü kimi yenidən müəyyən ediləcəkdir. Bundan əlavə, iqtisadi sahədə olan bəzi cinayətlər üzrə (məsələn, oğurluq, dələduzluq, soyğunçuluq, quldurluq və s.) yeni ağırlaşdırıcı hal kimi əməlin "xüsusilə, külli miqdarda ziyan vurmaqla" törədilməsi ayrıca cinayət tərkibi olaraq müəyyən ediləcəkdir.

Eyni zamanda, bu dəyişikliklərlə bərabər, ümumiyyətlə əməlin cinayət olmasını şərtləndirən maddi ziyanın vurulması həddində də dəyişikliklər nəzərdə tutulur. Məsələn, mövcud qanunvericiliyə görə, ağırlaşdırıcı hal olmadan, sadə tərkibdə oğurluq, dələduzluq, mənimsəmə və ya israf etmə əməlləri üzrə cinayət məsuliyyəti əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Təklif olunan dəyişikliyə görə isə, eyni əməllər üzrə məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranacaqdır.

Məlumdur ki, bu dəyişikliklərin edilməsi ilə bağlı hüquqşünas alimlər tərəfindən müxtəlif fikirlər irəli sürülür. Məsələn, hörmətli professor İlham Rəhimov cinayətkarlara münasibətin hazırki durumda liberallaşdırılmasının tez olduğunu bildirmişdir. Həqiqətən də, dəyişikliklərin əsas hissəsini təşkil edən iqtisadi sahədə cinayətlərin dinamikasında artmanın olmasını nəzərə alsaq, belə əməllərlə hüquqi deyil, inzibati və digər qaydada mübarizənin aparılmasının effektiv olacağına tam əmin ola bilmirik.

Ümumi mənzərə bundan ibarətdir ki, bu dəyişikliklərlə cinayət-hüquq siyasətində humanist addımların atılması nəzərdə tutulmuşdur. Məqsəd iqtisadi sahədə törədilən bəzi əməllərə görə cinayətlərin dekriminallaşdırılması, məsuliyyət müəyyən edilmiş tərkiblər üzrə isə azadlıqdan məhrumetmə cəzasının tətbiq olunmasını ən son vasitə kimi müəyyən edilməsidir.

Bilirsiniz ki, cənab Prezidentin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10.02.2017-ci il tarixli Sərəncamında da xüsusilə iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə məhkumetmənin artmasının və bu sahədə dekriminallaşdırmanın aparılmasının labüd olduğu, ümumilikdə cəza siyasətində humanistləşdirmə islahatının aparılması istiqamətində tədbirlər görülməsinin vacibliyi vurğulanmışdır.

Espert hesab edir ki, bu sahədə humanist addımların atılması özlüyündə hüquq-mühafizə orqanlarının üzərinə əlavə məsuliyyət müəyyənləşdirməlidir. Belə ki, bu orqanlar tərəfindən qanunvericiliklə dekriminallaşdırılan əməllər yenidən təhlil olunmalı, onlarla mübarizənin yeni və effektiv metodları müəyyən edilməlidir. Belə əməllərə görə bəzi hallarda cinayət məsuliyyətinin aradan qaldırılması onlarla mübarizənin dayandırılması anlamına gəlməməlidir. Çünki bir daha qeyd edirəm ki, xüsusilə iqtisadi sahədə törədilən cinayətlərin dinamikasında artım müşahidə edilir və iqtisadi proseslər dərinləşdikcə bu sahədə yeni metodlarla cinayətlərin törədilməsinə rast gəlinir.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli ötən sayımızda)**

**Reklamda cəlbedici modellər**

Cəlbedici insanlar reklamın inandırıcılığını yüksəldir və əmtəə daha yüksək qiymət alır. Lakin bu, həmişə belə olmur. Əgər sizin məhsulunuzun cəlbediciliklə heç bir əlaqəsi yoxdursa, bu taktikanı unutmaq lazımdır.

Cəlbedici qismində modelin qəbul edilməsi üçün şəraitin öyrənilməsi zamanı bir cəhət aşkar olunmuşdur ki, burada cəlbedici model ən yaxşı seçim hesab olunmur: bu zaman əmtəənin modellə yüksək assosiasiya olunma ehtimalı mövcuddur, məhsulun özü isə cəlbedicilik anlayışı ilə çox da yaxşı uzlaşmır.

Hansı məhsulların cəlbediciliklə əlaqəsi vardır? Bəzi misallar göstərək.

**Münasibdir:**

- Cah-calal (məsələn, idman avtomobili);
- Xarici görünüş (losyon);
- İncəsənət və gözəllik (makiyaj);
- Sağlamlıq (fitnes-məhsul).

**Qeyri-münasibdir:**

- Texnologiyalar (məsələn, proqram təminatı);
- Qidalanma (restoran);
- Ofis ləvazimatları (printer);
- Ev dekoru (mebel).

Bu, həmçinin sizin xarici mövqe tutmanızdan asılıdır. Bəzi brendlər ev dekorunda öz mallarının bədii mövqe tutmasından istifadə edə bilər. Belə olan halda cəlbedici model, əlbəttə, reklam elanında münasib ola bilər. Bununla belə, əksər brendlər üçün o, işə yaramayacaqdır.

Əgər siz cəlbedici modeldən, məsələn, tosterin reklamından istifadə edirsinizsə, insanlar şübhə etməyə başlayacaqlar ki, siz sadəcə onları alqıya məcbur etməyə cəhd göstərirsiniz. Onlar psixoloji reaktiv müqaviməti sınaqdan keçirəcək və sizin inandırma cəhdləriniz ilə mübarizə aparacaqlar.

Əsas nəticə: cəlbedici modellər adətən inandırmanı yüksəldir, lakin sizin üçün öz sövqedici motivinizi gizlətməkdən və ya ört-basdır etməkdən ötrü reklamda münasiblik vacibdir.




**MƏTN XƏBƏRLƏRİ:**

**Emosiya verən sözlərin ölçüsünün artması.** Şrift nə qədər böyük olursa, o, daha çox emosiya yaradacaqdır. Bu, ona görə baş verir ki, təkamül nəzəriyyəsinə uyğun olaraq, bizim əcdadlarımız potensial təhlükənin ölçüsü haqqında öz təsəvvürləri əsasında mühakimə yürüdürdülər.




Lakin sözlər öz təbiətinə görə simvolikdir. Sözlərlə əlaqədar emosiyalı reaksiyanın baş verməsindən ötrü insanlara bu sözlərin mənasını dərk etmək lazımdır. Buna görə də xüsusilə emosiyalı sözlərdən istifadə etməklə şriftin ölçüsünün artması emosiyalı təsiri gücləndirməyə kömək edə bilər.

Lakin nəzərə almaq lazımdır ki, artırılmış sözlər reklamın digər hissələrinə nisbətən diqqəti daha çox cəlb edəcək: mətnin şriftinin artması sözlərə diqqəti cəlb edəcək, nəticədə, brendin və təsviri elementlərin qavranılması azalacaq. Məqsədi bütün reklama diqqətin cəlb edilməsinin maksimallaşması olan reklam vericiləri mətn üçün böyük məkanın ayrılması məsələsini ciddi nəzərdən keçirməlidirlər.

Multifunksionallığın (lakin istifadə üsullarından yox) artırılması. İnsanlar, adətən yüksək dəyər səbəbindən multifunksional əmtəələrə üstünlük verirlər. Bundan əlavə, funksiyaların uzun siyahıları qısa siyahılara nisbətən daha inandırıcıdır.

Lakin bəzi nüanslar da vardır. İnsanlar çox zaman özlərinin bütün funksiyalarından istifadə edilməsi imkanlarını çox yüksək qiymətləndirirlər. Buna görə də onların əksəriyyəti istifadəyə görə ödənişi seçməyə yox, təsbit olunmuş məbləği ödəməyə üstünlük verirlər.

Başqa sözlə, əgər nəzərə alınsa ki, istehlakçılar hansı funksiyaları, həqiqətən, istifadə etməyi nəzərə alırlar, onda funksiyaların siyahısı xoşagəlməz nəticələrə səbəb ola bilər. Onda onların üstünlükləri az funksionallıqlı məhsul tərəfə yerini dəyişəcəkdir.

**Gedonik məhsullar üçün təsdiqləyici ifadələrdən istifadə olunması.**

Bütövlükdə, inadlı təsdiqləyici mətnlərin təhlükəsi mövcuddur – bu zaman oxucular hiss edirlər ki, siz onları inandırmağa çalışırsınız, onlar psixoloji reaktiv müqaviməti sınaqdan keçirə bilər. Onda onlar inandırma cəhdi ilə mübarizə aparacaqlar.

Lakin istisnalar da mövcuddur. Təsdiqləyici ifadələr gedonik (yuxu) məhsullar üçün reklam elanlarını yaxşılaşdıra bilər. Səbəb xoş şıltaqlıqlarla və inadkarlıqla əlaqədardır:

Gedonik istehlak kontekstləri daha böyük ehtimalla müsbət əhval-ruhiyyə yaradır və öz növbəsində təsdiqləyici terminlərdə istehlakçıları düşünməyə, sonra belə ifadələrlə sorğu etməyə sövq edir.

**(davamı var)**

**F.M.Qarayev ,**
**BDU-nun dosenti**

# Azərbaycan İqtisadçılar İttifaqı ADPU-da tədbir keçirmişdir

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına Azərbaycan İqtisadçılar İttifaqı aktual mövzuda layihə icra edir. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" strateji hədəfinin təşviqi tədbirləri" adlanan bu layihənin icrası uğurla davam edir. Layihə çərçivəsində 18.10.2017-ci il tarixdə ADPU-nun pedaqoji fakültəsində tələbə və pedaqoji kollektivin nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə layihə eksperti ADPU-nun dosenti İlham Əhmədov məruzə ilə çıxış etmişdir.

Məruzəçi çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə dair bu sözləri ilə başladı: "Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara sahib çıxmalıdır. …İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olunmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik".

Məruzəçi qeyd etdi ki, "Azərbaycan Respublikası milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə strateji hədəf kimi insan kapitalının inkişaf etdirilməsi bu baxımdan təsadüfi olmayıb, dövlətin uzunmüddətli strateji məqsədlərindəndir. Daha sonra insan kapitalı termininin izahını verən məruzəçi qeyd etdi ki, insan kapitalı insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün biliyinin, bacarığının, əlaqələrinin, peşəkarlığının cəmidir. Bu, intellekt, sağlamlıq, bilik, keyfiyyətli əmək və keyfiyyətli həyat şəraitidir. İlk dəfə termin Teodor Şuls tərəfindən işlədilib, sonradan davamçısı Heri Bekker tərəfindən inkişaf etdirilib. İsbat edilib ki, insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir. İlk dövrdə insan kapitalı dedikdə, insana sərf edilən investisiya başa düşülürdü. Sonradan anlayış genişləndirildi, bura insanın istehlak xərcləri - ailəsinə çəkilən xərc, təhsil, səhiyyə xərcləri, mədəni tələbləri aid edilməyə başlandı. Bu sahəyə dövlətin də xərcləri aid edilir. İnsan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur.



Bunu əsas tutaraq, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir. Bu, iki səviyyədə təmin ediləcəkdir: 1) insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi; 2) əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması.

Məruzəçi qeyd eimişdir ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində əsas strateji hədəflərdən olan "İnsan kapitalının inkişaf etdirilməsi" məsələləri bu gün bütün ölkələr üçün aktualdır. Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi mərhələsində insan kapitalı amili xüsusi ilə mühüm rola malikdir. İnsan kapitalının inkişafı isə təhsildən, onun keyfiyyətinin təmin edilməsindən daha çox asılıdır.

Milli strategiyada insan kapitalının inkişafı strateji hədəf kimi iki prioritetdən ibarətdir: prioritet 1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi; prioritet 2. Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması. Bu səbəbdən 2017-ci il ölkəmizdə "Təhsildə keyfiyyət ili" kimi qeyd edilir.

Məruzənin sonunda tədbir iştirakçıları – fakültənin dekanı prof. F.Rüstəmov və tədbirin digər iştirakçıları müzakirə edilən məsələ ilə əlaqədar öz fikir və təkliflərini bildirmiş, belə maraqlı mövzunun layihə çərçivəsində həyata keçirildiyi üçün təşkilatçılara - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına və Azərbaycan İqtisadçılar İttifaqına minnətdarlıq bildirmiş, maraqlı məruzə üçün təhsil eksperti İham Əhmədova təşəkkür etmişlər.

# Kürdəmir heyvası Rusiya bazarlarına çıxarılacaq

Kürdəmir rayonunda heyva yığımına başlanılıb. Cari mövsümdə bağlardan 2000 ton məhsul əldə olunması gözlənilir.

Rayon icra hakimiyyətindən bölgədə heyva bağlarının sahəsi ildən-ilə artır və hazırda 130 hektara çatıb. Rayonun, demək olar ki, bütün ərazisində, xüsusilə Yenikənd, Atakişili, Xırdapay, Qağacılı, Topalhəsənli, Dəyirmanlı, Mürtülü və digər ərazi dairələrində sakinlər heyva bağları salmağa böyük maraq göstərirlər. Kürdəmirli bağbanlar heyvanın "Məcidəmi", "Bəhram", "Cardam", "Kamil", "Əppək", "Armudu", "İyli", "Almalı", "Bardaq" və digər növlərini yetişdirirlər.



Ötən il rayonda 1890 ton heyva tədarük olunub. Bu il məhsul istehsalının 200 tonadək artacağı gözlənilir.

Yığılan məhsul təkcə yerli bazarlara deyil, xarici bazarlara da göndərilir. İndi sahibkarlar Kürdəmir heyvasını Rusiya bazarlarına çıxarmağa hazırlaşırlar.

# Bitcoinin qiyməti bu il 500%-dən çox artıb

Bitcoinin qiyməti bu il 500%-dən çox artaraq, qızıl, birja indeksləri və əmlak kimi investisiya alətlərini geridə qoyub.

"Marja" Dünya İqtisadi Forumunun (DİF, WEF) "Blok Zəncirinin (blockchain) Potensialını Fərq Etmək" adlı hesabatından toplanan məlumata istinadən xəbər verir ki, 2008-ci ildə qlobal iqtisadi böhranın ardından Satoshi Nakamoto adlı bir şəxs tərəfindən elektron pul sistemi qurulub. "Rəqəmsal pul", "kripto valyuta" kimi adlarla da işlədilən virtual pulların ənənəvi pullardan əsas fərqi, hökumətlər tərəfindən idarə edilməməsidir.

Hesabata görə, dünya miqyasında 900-ə yaxın virtual pul var. Bunlar arasında Bitcoin 106 milyard dolların üzərindəki bazar dəyərilə birinci yerdədir. Bitcoin bu il 500%-dən çox artım göstərərək, qızıl, birja, əmlak kimi investisiya alətlərinin önünə keçib.

Bitcoinin ardınca, 29,2 milyard dollarlıq bazar dəyərilə Ethereum və 7,8 milyard dollar ilə Ripple gəlir.

Daha əvvəl Çin, Rusiya, Vyetnam kimi ölkələr virtual pullara dair qaydalar yaradaraq, bəzi qadağalar qoyarkən, bu addımlar virtual pulların ucuzlaşmasına səbəb olmuşdu.

Sonucu dəfə dünyanın ən böyük birja əməliyyatçısı ABŞ-ın CME Group şirkəti bu ilin dördüncü rübündə Bitcoin ilə fyüçers əməliyyatlarına başlamağı planlaşdırdığını və lazımi tənzimləyici qurumların rəyini gözlədiyini bildirmişdi. Bu xəbərin ardından Bitcoin 5 faiz dəyər qazanıb.



**ETİBA RSIZDIR**

"Sani" MMC şirkətinə məxsus VÖEN: 1500873011 itdiyinə görə etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə anası

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

# "Excelsior Hotel & Spa Baku" oteli oktyabr ayında birinci olub

"Excelsior Hotel & Spa Baku" oteli oktyabr ayında mətbuatda işıqlanan məlumatların sayına görə birinci olub. "Media Consulting & Services" şirkətinin apardığı araşdırmaya görə, otelin fəaliyyəti ilə bağlı mətbuatda 141 məlumat işıqlanmışdır. "Media Consulting & Services" şirkəti 10 televiziya, 55 çap və 500 onlayn media daxil olmaqla 565-dən çox mənbədə işıqlandırılan məlumatları say, xarakter və məzmun üzrə təhlil edərək, sektorlar üzrə şirkətlərin media reytinqini hesablayıb.

EXCELSIOR HOTEL & SPA BAKU

"AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova qeyd edib ki, "Excelsior Hotel & Spa Baku" otelinin fəaliyyəti ilə bağlı oktyabr ayında mətbuatda 6 pres reliz işıqlanmışdır. Cari ilin noyabr ayında da turizm sahəsində təhsil alan tələbələr üçün "Turizm sektorunda PR-ın əhəmiyyəti" mövzusunda təlim, moda sevərlər üçün "Baku Fashion Club"ın növbəti tədbiri və digər maraqlı tədbirlər keçiriləcək.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500